# AZƏRBAYCANDA QEYRİ-RƏSMİ (GİZLİ) İQTİSADİYYATIN LEQALLAŞDIRILMASI SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ ÜZRƏ TƏKLİFLƏR



**Elşən Rəsul oğlu BAĞIRZADƏ***
Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı

## XÜLASƏ

Bu yazıda müəllif tərəfindən Azərbaycanda qeyri-rəsmi (*gizli*) iqtisadiyyatın leqallaşdırılması siyasətinin təkmilləşdirilməsi üzrə təkliflər təqdim edilmişdir. Müəllif dünya təcrübəsi və müvafiq nəzəri mənbələrin təhlili əsasında bu təklifləri 4 qrupda toplamışdır: 1) Makroiqtisadi mühitin təkmilləşdirilməsi; 2) İqtisadiyyatın rəsmi sektorunun cəlbediciliyinin artırılması; 3) İqtisadiyyatın qeyri-rəsmi (*gizli*) sektorunun cəlbediciliyinin azaldılması; 4) İqtisadiyyatın qeyri-rəsmi (*gizli*) sektoru əleyhinə sosial şüurun formalaşdırılması.

**Açar sözlər:** *qeyri-rəsmi iqtisadiyyat, qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması, Azərbaycan iqtisadiyyatı.*

## THE RECOMMENDATIONS ON IMPROVEMENT OF LEGALIZATION POLICY OF UNOFFICIAL (HIDDEN) ECONOMY IN AZERBAIJAN

**Elshan Rasul oglu BAGIRZADEH,**
Phd-student of Economics of Azerbaijan State Economic University

## ABSTRACT

In this paper, the author introduced policy recommendations on improvement of legalization policy of unofficial (hidden) economy in Azerbaijan. The recommendations are grouped on four directions based on anlysis of World practice and theoretical sources: 1) Improvement of macroeconomic environment; 2) Increasing of attractiveness of official sector of economy; 3) Decreasing of attractiveness of unofficial (hidden) sector of economy; 4) Formation of social conscious against unofficial sector of economy.

**Key words:** *unofficial economy, legalization of unofficial economy, Azerbaijan economy.*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

***Dünya təcrübəsinin və müvafiq nəzəri mənbələrin təhlili göstərir ki, hər hansı bir ölkədə həyata keçirilən qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması siyasətinin uğur qazanması üçün bu siyasətin 4 əsas istiqamət üzrə tədbirlər sistemini özündə birləşdirməsi zəruridir. Bu istiqamətlər aşağıdakılardır:***

- ***Makroiqtisadi mühitin yaxşılaşdırılması;***
- ***İqtisadiyyatın rəsmi sektorunun cəlbediciliyinin artırılması;***
- ***İqtisadiyyatın qeyri-rəsmi sektorunun cəlbediciliyinin azaldılması;***
- ***İqtisadiyyatın qeyri-rəsmi sektoru əleyhinə sosial şüurun formalaşdırılması.***

***Müstəqillik dövründə Azərbaycanda həyata keçirilən iqtisadi siyasətlərin təhlili göstərir ki, bu dövr ərzində yuxarıda qeyd olunan istiqamətlər üzrə ölkədə mühüm sayıla biləcək işlər görülmüşdür. Həmçinin də, tədqiqatlarımız göstərir ki, Azərbaycanda bu sahədəki dövlət siyasəti qarşıdakı illərdə də davam edəcəkdir. Bunu bəzi mühüm siyasi sənədlərindən də görmək mümkündür. Belə ki, "Azərbaycan Respublikasının milli təhlükəsizik konsepsiyası"nda (23.05.2007) bəzi qeyri-rəsmi iqtisadi fəaliyyətlər milli təhlükəsizlik üçün təhdid kimi qəbul edilmiş və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda (14.04.2009) "qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi" və "qeyri-qanuni miqrasiyanın qarşısının alınması", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda (15.09.2008) "büdcə gəlirlərinin artırılması istiqamətində vergilərdən azadolmaların sayının azaldılması, gömrük-tarif sistemində lüzumsuz güzəştlərin ləğv edilməsi, qeydiyyatdan yayınan hüquqi və fiziki şəxslərin qeydiyyata alınması işinin gücləndirilməsi, "həmçinin, cəmiyyətdə vergi mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə əhalinin maarifləndirilməsinin gücləndirilməsi və əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətində qeyri-formal əmək münasibətlərinin leqallaşdırılması üçün tədbirlər planının hazırlanaraq həyata keçirilməsi kimi tədbirlər nəzərdə tutulmuşdur.***

***Ölkədə bu istiqamətdə həyata keçirilmiş və keçirilməkdə olan siyasi tədbirlərin əhəmiyyətini qeyd etməklə yanaşı, hesab edirik ki, bu siyasətin bəzi istiqamətlər üzrə təkmilləşdirilməsi potensialı böyükdür. Uzunmüddətli tədqiqatlarımızın nəticəsi olaraq, ölkədə qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması siyasətinin təkmilləşdirilməsi üçün elmi cəhətdən əsaslandırılaraq hazırladığımız təkliflər paketini bu məqsədlə ilk dəfə olaraq "Azərbaycanın vergi xəbərləri"jurnalında maraqlı tərəflərə təqdim edirik.***

## 1. Makroiqtisadi mühitin yaxşılaşdırılması sahəsində

Azərbaycanda qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması siyasəti baxımından mövcud makroiqtisadi stabilliyin və iqtisadi inkişaf tempinin qorunub saxlanılması əsas şərt olmaqla yanaşı, tədqiqatlarımız göstərir ki, bu sahədə aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi də zəruridir:

**1.1.** Ölkədə iqtisadi artım tempi yetərli hesab olunsa da, mövcud iqtisadi inkişaf səviyyəsi özündə qeyri-rəsmi iqtisadiyyatın maddi əsaslarını qorumaqda davam edir. Bu baxımdan hesab edirik ki, qarşıdakı illərdə iqtisadi artımın davamlılığının təmin olunması, məşğulluq səviyyəsinin yüksəldilməsi, yoxsulluğun, gəlir bərabərsizliyinin, regional iqtisadi disbalansın

azaldılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətlərində siyasi tədbirləri intensiv şəkildə davam etdirilməlidir. Bunun üçün:

**1.1.1.** Ölkədə xammala əsaslanan iqtisadi artım modelindən yüksək texnologiya və məhsuldarlığa əsaslanan iqtisadi artım modelinə keçid istiqamətində aşağıdakı tədbirlər həyata keçirilməlidir:

- *Ölkəyə yeni texnologiya transferinin təşviq edilməsi.* Bunun üçün dövlət tərəfindən innovativ xarakterli kapital məhsullarının idxalı, xarici investorların (xüsusilə transmilli şirkətlərin) ölkəyə yeni texnologiyalar gətirməsi, yerli şirkətlərin xarici şirkətlərlə patent, françayzinq kimi sazişlər bağlaması, beynəlxalq elmi konfranslar, akademik mübadilə proqramları və elmi-texniki nəşrlərin yayılması təşviq edilməli və beynəlxalq texniki yardım proqramları ilə əməkdaşlıq daha da güclədirilməlidir.
- *Elmi-texnoloji araşdırmalara investisiya qoyuluşlarının artırılması.* Bu növ xərclərin ÜDM-də payının hazırda Yaponiyada 3 faiz, ABŞ-da 2,8 faiz, Avropa İttifaqında isə 1,8 faiz olduğunu nəzərə alaraq, Azərbaycanda da bu xərclərin ilk mərhələdə Avropa İttifaqı səviyyəsinə çatdırılmasına çalışılmalıdır. Bu baxımdan xüsusilə elmi-texnoloji araşdırmalara qoyulan investisiyaların, əsasən, dövlət tərəfindən maliyyələşdirildiyi hazırkı modeldən, tədricən maliyyələşdirmədə özəl sektorun aktiv şəkildə istirak etdiyi modelə keçilməlidir. Bunun üçün özəl sektorun elmi-texnoloji araşdırmalara yönəltdiyi fondların tamamilə və ya qismən vergidən azad olunması effektli tədbir ola bilər.
- *Elm-iqtisadiyyat əməkdaşlığının ən təkmil modellərinin tətbiq edilməsi.* Bu baxımdan elm və elmi-tədqiqat fəaliyyətləri tədricən universitetlərə ötürülməli və texnoloji və biznes inkubator mərkəzləri, texnoparklar, texnoşəhərciklər və elm parkları kimi elm-iqtisadiyyat və ya universitet-biznes əməkdaşlığının mühüm infrastrukturları formalaşdırılmalıdır.
- *İqtisadiyyatda resursların bölgüsü və istifadəsi sahəsində səmərəliliyin yüksəldilməsinə imkan verən müasir istehsal və idarəetmə sistemlərinin formalaşdırılması.* Bu baxımdan iqtisadiyyatda korporativ idarəetmə standartlarının mənimsənilməsi və inkişaf etdirilməsi, firmaların "məcmu keyfiyyət idarəetməsi", "statistik proses nəzarəti", "dizaynda keyfiyyət", "benchmarking", "kiçilmə", "optimallaşma", "outsourcing", "çevik istehsal", "sadə təşkilat modeli", "iyerarxiyaların azaldılması", "işçilərin gücləndirilməsi", "avtomatlaşdırma", "fasiləsiz təlim", "avtonəzarət", "kaizen", "5-S" kimi yeni idarəetmə model və texnologiyalarından istifadəsi təşviq edilməlidir.
- *Optimal həcmli iqtisadi vahidlərin formalaşması təşviq edilməklə iqtisadiyyatda miqyas effektinin yüksəldilməsi.* Hazırda ölkə iqtisadiyyatında fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 95 faizdən çoxu kiçik müəssisələr və fiziki şəxslərdir və bu da aşağı məhsuldarlığın əsas səbələrindən biri kimi çıxış edir. Bu baxımdan başda aqrar sektor olmaqla ölkə iqtisadiyyatında iri sahibkarlıq subyektlərinin formalaşmasının stimulaşdırılması zəruridir.
- *Təhsilin, xüsusilə də peşə təhsilinin keyfiyyət göstəricilərinin yüksəldilməsi və ölkədən "beyin axını"na yol verilməməsi.* Bu baxımdan bazar iqtisadiyyatına ən uyğun təhsil sisteminin Qərbdə formalaşdığı məntiqindən hərəkət edərək, ölkə təhsil sisteminin Avropa standartlarına keçidi ilə bağlı aparılan islahatların dərinləşdirilməsi və tək-

milləşdirilməsi, təhsilin idarə olunmasında müasir yanaşmalara üstünlük verilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının mütəmadi modernləşdirilməsi və təhsil işçilərinin maddi və sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində iqtisadi meyarlara əsaslanan strategiyaya keçid sürətləndirilməlidir.

Bu istiqamətdə xüsusilə aqrar sektorda məhsuldarlığın artırılması istiqamətində fəaliyyətlərin gücləndirilməsinin zəruri olduğunu nəzərə alaraq, burada iqtisadi vahidlərin konsolidasiyası prosesinin stimullaşdırılması, mütərəqqi texnologiyalardan istifadənin genişləndirilməsi, dünya standartlarına dolğun şəkildə cavab verən məhsul istehsalı, tədarükü, qablaşdırılması və daşınması sistemlərinin formalaşdırılması, şoranlaşma, erroziya, su çatışmazlığı və xəstəliklərlə mübarizənin daha da gücləndirilməsi, damazlıq və seleksiya işlərinin səmərəliliyinin artırılması və qiymət səviyyəsinin qorunması mexanizmlərinin qurulması kimi tədbirlər həyata keçirilməlidir.

**1.1.2.** Ölkədə məşğulluğun yüksəldilməsi, başqa sözlə, işsizliyin təbii səviyyədə saxlanılması və bu sahədəki uğurların davamlılığının təmin edilməsi məqsədilə aşağıdakı istiqamətlərdə tədbirlər gücləndirilməlidir:

- *Məşğulluq probleminin həllində özəl sektorun rolunun artırılması.* Bu baxımdan özəl sahibkarlığın inkişaf etdirilməsi və məşğulluq üzərindəki vergi yükünün daha da azaldılması xüsusi əhəmiyyət kəsb edir.
- *Məşğulluğu təşviqedici iqtisadi siyasət mexanizmlərinin formalaşdırılması.* Bu baxımdan müxtəlif ölkələrdə tətbiq edilən yeni işçilər üçün vergidən azadolma (Monteneqro), yeni iş yerləri üçün vergi krediti (Estoniya, Slovakiya, Gürcüstan), reinvestisiya gəlirlərinə vergi güzəşti (Estoniya), işsizliyin yüksək olduğu və üstün inkişaf etdirilən regionlarda kiçik və orta sahibkarlığa vergi güzəşti və krediti (İtaliya və Türkiyə), yeni işə qəbul olanlar üçün məcburi sosial sığorta dərcəsinin azaldılması (İspaniya, İtaliya), yeni özünüməşğullar üçün sosial müdafiə ayırmasının azaldılması (Polşa, Birləşmiş Krallıq, Fransa) kimi iqtisadi siyasət mexanizmlərindən istifadə oluna bilər.
- *Əmək bazarında tələb və təklifin struktur uyğunluğuna nail olunması istiqamətində tədbirlərin genişləndirilməsi.* Xüsusilə, bu istiqamətdə ölkədə əməkqabiliyyətli əhalinin sayında peşə təhsilli olanların payının (hazırda təxminən 10%) inkişaf etmiş ölkələrlə müqayisədə nisbi aşağı olduğunu, iqtisadiyyatın isə hazırda bu növ işçilərə ehtiyacının yüksəldiyini nəzərə alaraq, əmək təklifində peşə təhsilli işçilərin payının artırılması zəruridir.
- *İşsizlərə yeni peşə bacarıqları aşılayan geniş miqyaslı peşə təhsili proqramlarının həyata keçirilməsi.* Bunun üçün ilk növbədə ölkədə işsizliyin inventarizasiyası təkmilləşdirilməli və işsizlərin rəsmi şəkildə qeydiyyatdan keçmələri təşviq edilməlidir. Sonrakı mərhələdə isə peşə bacarıqları əmək bazarının tələblərinə cavab verməyən işsizlərin ödənişsiz şəkildə qısamüddətli peşə təhsili kurslarına cəlb edilməsi zəruridir. Bu zaman dövlət peşə təhsili qurumları ilə yanaşı, özəl sektor və qeyri-hökumət təşkilatlarının müvafiq imkanlarından istifadə edilməsi də prosesin effektliyinin yüksəldilməsinə imkan verəcəkdir.
- *Uzunmüddətli işsizlərin "keçid işlər"lə təmin edilməsi.* Almaniyada geniş tətbiq olunan bu yanaşmaya görə rəsmi qeydiyyatdan keçmiş və uzun müddət işsiz qalan şəxslərin, ixtisasına və istəyinə uyğun işlə təmin olunanadək, əmək vərdişlərini

itirməmələri, həmçinin, müəyyən gəlir əldə etmələri məqsədilə bir növ "keçid" xarakteri daşıyan işlərə cəlb olunması nəzərdə tutulur ki, bu Azərbaycanda da geniş tətbiq edilməlidir.

**1.1.3.** Ölkədə yoxsulluğun və gəlir bərabərsizliyinin azaldılması məqsədilə, yoxsulluqla mübarizənin mövcud siyasət mexanizmləri təkmilləşdirilməli, gəlir bərabərsizliyinin azaldılmasında fiskal siyasət vasitələrindən daha da aktiv şəkildə istifadə edilməlidir. Bu baxımdan aşağıdakı tədbirlərin həyata keçirilməsi effektli ola bilər:

- *Qarşıdakı illərdə neft gəlirlərinin daha da artacağını nəzərə alaraq, Beynəlxalq Əmək Təşkilatının müəyyənləşdirdiyi sığorta növlərindən biri olan "ailə sığortası"nın tətbiq edilməsi.* Belə ki, bu sığortanın tətbiqi ilə, yoxsul ailələrə dövlət tərəfindən müxtəlif adlarla ödənilən mövcud pul transfertlərini, bu ailələrdəki anaların adına açılmış bank hesablarına yatırılacaq vahid məbləğdə (normal bir ailənin minimum tələbatlarını ödəməyə imkan verən) aylıq pul transferti ilə əvəz etmək olar.
- *Yoxsul ailələrin dövlət tərəfindən mənzil təminatının yaxşılaşdırılması, təhsil və səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində tədbirlərin gücləndirilməsi.* Bu istiqamətdə yoxsul ailələrin mənzil əldə etmə imkanlarının genişləndirilməsi məqsədilə mövcud ipoteka kreditləşdirilməsi sisteminin daha da sadələşdirilməsi və genişləndirilməsi, təhsil və səhiyyə xidmətlərindən daha səmərəli istifadə etmələrini təmin etmək məqsədilə dövlət tərəfindən maliyyələşdirilən və yalnız yoxsul şəxsin istifadə edə biləcəyi xüsusi kartların tətbiqi qarşıdakı illərdə həyata keçirilə bilər. Həmçinin, yoxsul ailələrin mənzil təminatını yaxşılaşdırmaq məqsədilə, Türkiyə təcrübəsinə əsaslanaraq, bu sahədə dövlət siyasətini həyata keçirəcək "Prezident yanında Əhalinin Mənzil Təminatı Xidməti" modelində rəsmi strukturun formalaşdırılması da mümkündür.
- *Hazırda rəsmi qeydiyyatdan keçmiş işsizlərə verilən işsizlik müavinəti məbləğinin, bu sahədə nəzarəti gücləndirmək şərtilə, artırılması.* Hazırda rəsmi işsizlərə verilən müavinət məbləği onları Qərb ölkələrindəki kimi tənbəlliyə sövq etməkdən daha çox, qeyri-rəsmi sektora yönləməyə stimullaşdırır. Fikrimizcə, bu məbləğin minimum həyat standartları səviyyəsinə çatdırılması istiqamətində tədbirlər davam etdirilməlidir.
- *Mikrokreditləşdirmə mexanizminin yoxsulluğun yüksək olduğu bölgələrdə daha geniş şəkildə tətbiq edilməsi.* Bu istiqamətdə hazırda daha çox banklar vasitəsilə həyata keçirilən mikrokreditləşdirməyə qeyri-bank qurumlarının da cəlb edilməsi zəruridir. Bunun üçün dünya təcrübəsinə (xüsusilə, Braziliya, Hindistan, Banqladeş) əsaslanmaqla, kredit ittifaqlarının inkişafının stimullaşdırılması, qeyri-hökumət təşkilatı statusunda olan fondların bu istiqamətə yönləndirilməsi müstəsna əhəmiyyət kəsb edəcəkdir.
- *Rəsmi şəkildə yoxsulluğu təsdiq edilmiş ailələrin üzvlərini işlə təmin edənlərə vergi güzəştinin tətbiq edilməsi.* Son illər Macarıstan və Niderlandda da formalaşdırılan bu mexanizmi Azərbaycanda, ilk növbədə, müəssisələrin mənfəət vergisi ödəmələrinə tətbiq etmək mümkündür. Belə ki, hazırda ölkədə məhdud əmәkqabiliyyətli insanları çalışdıran müəssisələrə mənfəət vergisindən belə bir güzəşt nəzərdə tutulur və bunu yoxsul insanların çalışdırılmasına da aid etmək olar. Həmçinin, eyni yanaşma Macarıstanda olduğu kimi məcburi sosial sığorta ödəmələrinə də tətbiq edilə bilər.

- *Məşğulluğun strukturunda aqrar sektorun payının tədricən azaldılması.* Hazırda məşğul əhalinin 38 faizdən çoxu aqrar sektorda çalışır ki, bu sektor da aşağı məhsuldarlığı səbəbilə çalışan əhalinin maddi vəziyyətinin yüksəlməsinə imkan vermir və bəzi hallarda "gizli işsizlik" doğurur. Hətta bir sıra istiqamətlərdə məhsuldarlığın artırılması yönündə görülən tədbirlər də obyektiv olaraq, çalışan işçilərin ixtisarı ilə nəticələnir. Bu baxımdan, dövlət tərəfindən aqrar sektorda çalışanların tədricən digər sektorlara keçidi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi zərurəti ortaya çıxır.
- *Dövlət sosial proqramlarının maliyyələşdirilməsi və gəlir bölgüsünün yaxşılaşdırılması məqsədilə ölkədə artıq prestij göstəricinə çevrilmiş lüks məhsullara yüksək dərəcəli dolayı vergilərin (aksiz, ƏDV və.s) tətbiq edilməsi və şəhər mərkəzləri, prestijli ərazilər üzrə fiziki şəxslərə tətbiq olunan əmlak və torpaq vergisi dərəcələrinin yüksəldilməsi.* Bu baxımdan, xüsusilə, zinət əşyaları, avtomobil, lüks məişət əşyaları kimi məhsullara tətbiq edilən dolayı vergilərin və şəxsi villalara tətbiq edilən əmlak vergisi dərəcəsinin yüksəldilməsi mümkündür.
- *Ölkədə funksional və fərdi gəlir bölgüsü sistemini yaxşılaşdırmaq məqsədilə, əməkhaqlarının yüksəldilməsinin prioritetliyi gözlənilmək şərtilə, əməkhaqqı və kapital gəlirləri arasında optimal nisbətin əldə edilməsi istiqamətində tədbirlərin gücləndirilməsi.* Bu istiqamətdə, ilk növbədə, yoxsulların ictimai işlərə cəlb edilməsi də daxil olmaqla, onların məşğulluğunun təmin edilməsinə və minimum əməkhaqqı səviyyəsinin artırılmasına çalışılmalıdır. Digər tərəfdən isə dövlət ölkədə torpaq bazarının formalaşdırılması və inkişafı sahəsində tədbirləri gücləndirməlidir ki, yoxsulların sahib olduqları iki əsas istehsal faktorundan biri olan torpaqla (digəri əmək) milli gəlirin formalaşdırılmasında daha aktiv və səmərəli şəkildə iştirak edə bilsinlər.

**1.1.4.** Artıq regional inkişaf məsələlərində Azərbaycan dövləti tədricən iqtisadi siyasətin birbaşa metodlardan daha çox, dolayı metodlara, başqa sözlə, mühityaradıcı faktorlara təsir göstərilməsinə üstünlük verməlidir. Xüsusilə, həyata keçirilən mövcud siyasət aşağıdakı istiqamətlərdə inkişaf etdirilməlidir:

- *Regional reallıqların daha ətraflı nəzərə alınması və regional subyektlərin daha aktiv iştirakının təmin edilməsi.* Bu ilk növbədə regional inkişaf planı və proqramlarının hazılanmasında tətbiq edilən metod və yanaşmalardan asılıdır. Bu baxımdan birinci mərhələdə, hər regionda regional inkişafla bağlı bütün maraqlı tərəflərin (dövlət, özəl və qeyri-hökumət təşkilatları sektoru) irad və təklifləri də nəzərə alınaraq, həmin regionun mövcud vəziyyətinin kompleks təhlilini özündə birləşdirən hesabatlar hazırlanmalıdır. İkinci mərhələdə, bu hesabatlar əsasında regionun SWOT təhlili aparılmalı və bu əsas götürülməklə, həmin regionun tematik və sektorlar üzrə inkişaf istiqamətlərini, inkişaf hədəfləri və prioritetlərini, eyni zamanda, müvafiq tədbirlər planını özündə birləşdirən regional inkişaf plan və proqramı hazırlanmalıdır. Beləliklə, məhz bütün maraqlı tərəflərin iştirakı ilə hazırlanan plan və proqramlar onun hazırlanmasında iştirak edənlərin icra prosesində aktivliyini də mühüm dərəcədə yüksəldəcəkdir.
- *İnvestisiya qoyuluşlarında düzgün ardıcıllıq, yüksək multiplikativlik və bir-birini tamamlama prinsiplərinə əməl edilmə səviyyəsinin yüksəldilməsi.* Bu zaman sektorlararası və regionlararası iqtisadi asılılıq əmsallarından istifadə edilərək, investisiyalar

elə sahələrə yönləndirilməlidir ki, həmin sahələr regionun inkişafında “lokomotiv” rolunu oynaya bilsin.

- *Regional inkişafa elmi dəstəyin gücləndirilməsi.* Fikrimizcə, bunun üçün ən effektiv tədbir, universitetlərin tədricən regionlara istiqamətləndirilməsi və onların fəaliyyətinin regionun ehtiyacları və spesifik xüsusiyyətlərilə uyğunlaşdırılması ola bilər. Bu baxımdan, gələcəkdə regionlarda nəinki yeni universitetlərin yaradılması təşviq edilməlidir, eyni zamanda, Bakı şəhərində yerləşən universitetlərin bəzi fakültələrinin müvafiq regionlara köçürülməsi mümkündür. Bu tədbirlər nəinki regional inkişafa elmi dəstəyin gücləndirilməsini təmin edəcək, eyni zamanda, regionlarda iqtisadi aktivliyin yüksəlməsinə və onların beynəlxalq əlaqələrinin genişlənməsinə də xidmət edəcəkdir.

Fikrimizcə, Azərbaycanın regional inkişaf siyasətində qeyd olunan istiqamətlərdə təkmilləşmələrə nail olmaq üçün, ilk növbədə, bu sahədə institusional mexanizmlərin inkişaf etdirilməsi zəruridir ki, bunun da əsasında əksər Qərb ölkələrində mövcud olan Regional İnkişaf Agentliklərinin təcrübəsindən istifadə dayanır. Məhz bu təcrübədən istifadə Azərbaycanın regional inkişaf siyasətinin etibarlı informasiya bazasının formalaşdırılmasına və bu siyasətdə dövlət, bələdiyyə, özəl bölmə və qeyri-hökumət təşkilatlarının birgə və effektiv iştirakını təmin etməyə imkan verəcəkdir.

**1.1.5.** Tədqiqatlarımız göstərir ki, Azərbaycan iqtisadiyyatında qeyd olunan istiqamətlərdə müsbət irəliləyişlərin əldə olunması və qeyri-rəsmi iqtisadi fəaliyyətlərin maddi əsaslarının zəiflədilməsi qeyri-rəsmiliyin nisbətən yüksək olduğu qeyri-neft sektorunun inkişafından mühüm dərəcədə asılıdır. Belə ki, ölkədə qeyri-neft sektorunun inkişafı iqtisadi artımın neftdən asılılığını azaltmaqla onun davamlılığını təmin edəcək, məşğulluq göstəricilərinin kəmiyyət və keyfiyyətcə yaxşılaşmasına səbəb olacaq və yoxsulluq riskinin nisbətən yüksək olduğu regionlarda iqtisadi inkişafı təmin etməklə, regional inkişaf və gəlir bərabərsizliyinin azalmasına da xidmət edəcəkdir.

**1.2.** Ölkədə inflyasiya ilə mübarizənin davamlılığını təmin edəcək və inflyasiyanın iqtisadi subyektlər üzərindəki neqativ təsirini neytrallaşdıracaq mexanizmlər inkişaf etdirilməlidir. Bu baxımdan mövcud siyasətin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsi effektli ola bilər:

- *Mərkəzi Bankın bazar subyektlərinin səmərəli gözləntilərini yönləndirmə mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi.* Bu baxımdan Azərbaycanda formalaşdırılması zəruri olan mexanizmlərdən başlıcası iqtisadi subyektlərin gözləntilərini müəyyənləşdirəcək anket sorğularının müntəzəm olaraq həyata keçirilməsi və nəticələrinin sistemli şəkildə ictimaiyyətə açıqlanmasıdır. Bu mexanizmlərə “Gözlənti Anketi”, “İqtisadi Təmayül Anketi” və bunlar əsasında formalaşdırılmış “Real Sektorun Güvənmə İndeksi” və “İstehlakçının Güvənmə İndeksi” aiddir. Bunlar həm Mərkəzi Bankın monetar siyasətini daha effektiv şəkildə qurmağa imkan verəcək, həm də iqtisadi subyektlərin gözləntilərinin düzgün istiqamətdə formalaşdırılmasına təsir göstərəcəkdir.
- *Gəlirlərin indeksləşdirilməsinin mövcud praktikasının genişləndirilməsi.* Hazırda ölkədə inflyasiya səviyyəsinə uyğun olaraq gəlirlərin indeksləşdirilməsi daha çox pensiya və sosial müavinətlərin ödənilməsində özünü göstərsə də, fikrimizcə, bu prosesin sistemli şəkildə dövlət sektorunda çalışanların əməkhaqlarını, eyni zamanda,

ölkədə minimum əməkhaqqı məbləğini əhatə edəcək istiqamətlərdə genişləndirilməsi və bunun qanunla təsbit edilməsi daha effektli olacaqdır.

- *İnflyasiyanın bazar subyektləri üzərində vergiqoyma baxımından yarada biləcəyi "fiskal sürünmə" (fiscal drag) effektini neytrallaşdırmaq məqsədilə, 1989-cu ildə 29 Saylı Beynəlxalq Mühasibat Standartı tərəfindən ortaya atılan və hazırda əksər Qərb ölkələrində tətbiq edilən inflyasiya muhasibatlığı sisteminə keçilməsi.* Bu sistemin tətbiqi pulun satınalma gücündəki dəyişmələr səbəbilə maliyyə göstəricilərində ortaya çıxan süni "artım"ların vergitutma zamanı nəzərə alınmasına imkan verəcəkdir. İnflyasiya muhasibatlığı sistemi xüsusilə də proporsional vergi sisteminin tətbiq edildiyi Azərbaycan kimi ölkələrdə daha əhəmiyyətlidir.

1.3. Ölkədə faiz siyasətinin qeyri-rəsmi yığımların investisiya şəklində rəsmi iqtisadiyyata cəlb olunmasını stimullaşdırma potensialı artırılmalıdır. Bu baxımdan aşağıdakı iki istiqamətdə əldə olunacaq nailiyyətlər çox əhəmiyyətlidir:

- *Əmanətlərə tətbiq edilən orta faiz dərəcələri ilə kapitalın qeyri-rəsmi sektorda orta gəlirlilik səviyyəsi arasındakı uyğunsuzluğun minimuma endirilməsi.* Bu, yığımlarını qeyri-rəsmi sektorda investisiyaya yönəldənləri həmin yığımlarını banklara əmanət şəklində təqdim etməyə sövq edə bilər.
- *İnvestisiya kreditlərinə tətbiq edilən faiz dərəcələrinin rəsmi sektorda investisiya fəaliyyətini stimullaşdırmağa imkan verməsi.* Bu, banklardakı yığımların rəsmi sektorda investisiyaya çevrilməsi prosesini sürətləndirəcəkdir.

1.4. Ölkədə makroiqtisadi stabilliyin mühüm elementi olan valyuta gəlirlərinin uzunmüddətli dövrdə davamlılığının təmin olunması baxımından ixrac gəlirlərinin neftdən asılılığının azaldılması istiqamətdində siyasət tədbirləri həyata keçirilməlidir. Bu baxımdan, xüsusilə, qeyri-neft sektorunun ixrac potensialının gücləndirilməsi müstəsna əhəmiyyət daşıyır. Dünya təcrübəsinə əsaslanaraq, bu istiqamətdə aşağıdakı tədbirlərin dövlət tərəfindən həyat keçirilməsi effektli ola bilər:

- *Ölkənin mövcud və potensial ticarət partnyorları ilə ikitərəfli ticarətin hüquqi əsaslarının inkişaf etdirilməsi, sərbəst ticarət sazişlərinin imzalanması, viza rejiminin sadələşdirilməsi və bu ölkələrdəki diplomatik korpuslarda ticarət və iqtisadi müşavirlik xidmətlərinin formalaşdırılması və inkişaf etdirilməsi.* Burada xüsusilə qeyd etməliyik ki, MDB ölkələrindən başqa Azərbaycanın, demək olar ki, bütün ölkələrlə ciddi viza rejimi mövcuddur. Fikrimizcə, qarşılıqlılıq prinsipi gözlənmək şərtilə bütün ticarət-iqtisadi partnyorlarımızla viza rejiminin sadələşdirilməsi və ya tamamilə aradan qaldırılması istiqamətində addımların atılması bu ölkələrlə iqtisadi əlaqələrimizin genişlənməsinə ciddi təsir göstərəcəkdir. Həmçinin, fikrimizcə, ilk mərhələdə bu və qeyd olunan digər istiqamətlərdəki fəaliyyətlərdə türk respublikaları, Müstəqil Dövlətlər Birliyi və İslam Konfransı Təşkilatı ölkələri prioritet xarakter daşımalıdır.
- *İxrac yönümlü istehsal sahələrinə maliyyə təşviqlərinin verilməsi.* Bu istiqamətdə ixracat firmalarına ixracat fəaliyyətlərinin inkişaf etdirilməsi ilə bağlı müxtəlif məqsədlər üçün layihələr əsasında qarşılıqsız pul yardımları və faizsiz kreditlər verilə bilər. Eyni zamanda, da ixracatçı firmaların ixracat fəaliyyətlərini genişləndirmək məqsədilə müxtəlif maliyyə institutlarından əldə etdiyi kreditlərin faizlərinin dövlət tərəfindən ödənilməsi mümkündür. Bunlarla yanaşı, bəzi ölkələrdə tətbiq olunan "vergi qaytarılması" metodundan da istifadə edilə bilər. Belə ki, ixracatçı firmaların

istifadə etdiyi idxal məhsullarından dövlətin aldığı gömrük vergisi məbləğinin xərclərinin aşağı salınması məqsədilə ixracatçı firmalara ödənilməsi onların rəqabətqabiliyyətliliyinin yüksəlməsinə müsbət təsir göstərə bilər.

- *İxracın kreditləşdirilməsi ("EximBank"lar vasitəsilə).* Dövlətin ixracatı təşviq siyasətinin ən mühüm vasitələrindən olan bu mexanizmin formalaşdırılması məqsədilə, nəzarət-səhm paketi dövlətə aid olan "AzEXIMBANK" modelində ayrıca bir bankın təsis edilməsi mümkündür. Fikrimizcə, bankın təkcə ixrac fəaliyyətlərinin kreditləşdirilməsini deyil, eyni zamanda, ixracatçıların ixracat məqsədilə digər maliyyə instutlarından əldə etdiyi kreditlərə qarantiya verilməsini və idxalatçı ölkədə yarana biləcək iqtisadi və siyasi risklərinin müəyyən bir hissəsinin sığortalanmasını da həyata keçirməsi daha effektli olacaqdır.
- *İxrac firmalarının beynəlxalq standartlaşdırma və sertifikatlaşdırma sistemlərinə inteqrasiyasına dəstək verilməsi.* Hazırda dünya ticarətində geniş yayılmış bu tipli qeyri-tarif məhdudiyyətlərini aşmaq üçün milli standartlaşdırma və sertifikasiya sistemlərinin beynəlxalq tələblər səviyyəsinə yüksəldilməsilə yanaşı, ölkə firmalarının xüsusilə Avropa səviyyəsində "CEN", "CENELEC" və "ETSI" və beynəlxalq səviyyədə isə "ISO" və "IEC" kimi standartlaşdırma və sertifikatlaşdırma sistemlərinə inteqrasiyasına dövlət tərəfindən dəstək verilməsi müstəsna əhəmiyyət kəsb edir.
- *İxrac firmalarının beynəlxalq bazar araşdırmalarına dəstək verilməsi, ölkə ixracatçıları və ixrac yönümlü istehsal sahələri ilə bağlı mükəmməl informasiya bazalarının formalaşdırılması.* Bu istiqamətdə, ilk növbədə, müvafiq rəsmi strukturun formalaşdırılmasına ehtiyac vardır. Belə ki, hazırda İqtisadi İnkişaf Nazirliyinə bağlı olan Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondunun ("AZPROMO") funksiyaları, maddi-texniki bazası genişləndirilməklə, ona ölkə ixracatçılarının beynəlxalq bazarlarla bağlı bütün informasiyaları əldə edə biləcəyi "vahid pəncərə" statusu qazandırmaq mümkündür. İxracatçılar çox ciddi araşdırma strukturlarına malik olması tələb olunan bu qurumdan maraqlandıqları bütün beynəlxalq və ölkə bazarları ilə bağlı zəruri məlumatları real və virtual qaydada əldə edə bilməlidir. Bu tipli xidmət, eyni zamanda Azərbaycandan məhsul idxal etmək istəyən xarici firmalara da göstərilməlidir.
- *Beynəlxalq aləmdə "Made in Azerbaijan" marka imicinin formalaşması və inkişafı sahəsində kompleks və sistemli tədbirlərin genişləndirilməsi.* Bu fasiləsiz proses olmaqla yanaşı, həmçinin, bütün dövlət qurumlarının birgə fəaliyyətini tələb edir. Bu baxımdan dövlət tərəfindən bütün rəsmi strukturların fəaliyyətlərində rəhbər tutacağı "Made in Azerbaijan" Marka İmicinin Formalaşdırılması Sahəsində Dövlət Strategiyası" adlı sənədin hazırlanması zəruridir.

1.5. Büdcə tarazlığının davamlılığının təmin edilməsi və büdcənin sosial-iqtisadi funksiyalarının daha səmərəli şəkildə reallaşdırılması məqsədilə onun neft faktorundan asılılığı tədricən azaldılmalı və vergilər kimi davamlı gəlir mənbələrilə maliyyələşdirilmə səviyyəsi artırılmalıdır. Buna aşağıdakı istiqamətlərdə həyata keçiriləcək məqsədyönlü tədbirlər nəticəsində tədricən nail olmaq mümkündür:

- *İqtisadiyyatda real sektorun, xüsusilə də qeyri-neft sektorunun inkişaf etdirilməsi.* Hazırda dövlət büdcəsinin gəlirləri, əsasən, neft sektorundan toplanan vergilər və Neft Fondundan transfertlər hesabına formalaşır və qeyri-neft sektorunun payı müqayisədə

azlıq təşkil edir. Bu baxımdan qeyri-neft sektorunun inkişafı istiqamətindəki addımlar daha da sürətləndirilməlidir ki, bu sektorda vergi bazasını genişləndirmək, başqa sözlə, vergi gəlirlərini yüksəltmək mümkün olsun.

- *İqtisadiyyatın bəzi sahələrində müvafiq vergi dərəcələrinin artırılması və ya yeni vergilərin tətbiq edilməsi.* Bunu yuxarıda da qeyd etdiyimiz kimi, bəzi lüks məhsul, xidmət və əmlaka münasibətdə həyata keçirmək mümkündür və Azərbaycanda bu potensial mövcuddur.
- *Qeyri-rəsmi iqtisadiyyatın daha da məhdudlaşdırılması.* Təbii ki, qeyri-rəsmi iqtisadiyyatın qeyri-neft sektorunda olduğunu nəzərə alsaq, onun məhdudlaşdırılması da qeyri-neft sektorunda vergi bazasının genişlənməsinə xidmət edəcəkdir.

1.6. Həm iqtisadi inkişafı sürətləndirməsi, həm də qeyri-rəsmi sektoru məhdudlaşdırıcı effektə malik olması nəzərə alınaraq, qeyri-neft sektorunda xarici investisiyaları stimullaşdırıcı tədbirlərə daha geniş yer verilməlidir. Dünya təcrübəsində, əsaslanaraq bu sahədə aşağıdakı istiqamətlər üzrə siyasət tədbirlərinin həyata keçirilməsinin effektli olacağını qeyd edə bilərik:

- *Xarici investisiyalara vergi güzəştlərinin tətbiq edilməsi.* Hazırda yalnız xarici investorların fiziki kapital (maşın və avadanlıq) idxalı gömrük vergilərindən azad olunsa da, fikrimizcə, bu istiqamətdə Azərbaycan regionlarına, qeyri-neft sektoruna investisiya qoyan və ya müəyyən məbləğdən artıq investisiya qoyan xarici investorlar üçün investisiyanın qoyulduğu tarixdən başlayaraq müəyyən müddət bütün vergilərdən azad edilmə və ya vergi endirimi formasında stimullaşdırıcı mexanizmlər də formalaşdırıla bilər. Eyni zamanda, bu kimi güzəştlərin həmin investorların reinvestisiya, innovasiya və elmi-texniki araşdırma fəaliyyətlərinə tətbiq edilməsi də mümkündür.
- *Azad iqtisadi zonaların yaradılması.* Nəzərə almaq lazımdır ki, Azərbaycanda azad iqtisadi zonaların yaradılması təkcə ölkəyə xarici investisiyaların cəlbinə şərait yaratmayacaq, eyni zamanda, ixrac yönümlü istehsalın inkişafına, xarici bazarlarla əlaqələrin genişlənməsinə, idxalın ucuzlaşmasına, məşğulluğun yüksəlməsinə və texnologiya idxalının sürətlənməsinə də müsbət təsir göstərəcəkdir.
- *Dövlət mülkiyyətinin özəlləşdirilməsində xarici investorların iştirak imkanlarının genişləndirilməsi.* Bu istiqamətdə, xüsusilə, özəlləşdirmənin "kənar müqavilə" (contracting-out) metodu vasitəsilə yolların salınması və təmiri, şəhər park və təmizlik xidmətləri kimi, "idarəetmə müqaviləsi" (management contract) metodu vasitəsilə isə turizm, səhiyyə, şəhərdaxili nəqliyyat xidmətləri kimi ölkəmizin yüksək modern təcrübəyə malik olmadığı sahələrə xarici investorların cəlbinə çalışılmalıdır.
- *"Yarat - İşlət - Sahib Ol", "Yarat - İşlət - Təhvil Ver" kimi maliyyələşdirmə mexanizmlərindən geniş istifadə edilməsi.* Bu mexanizmlərdən, xüsusilə, dünya standartlarına cavab verməyən infrastruktur obyektlərinin modernləşdirilməsi və böyük həcmli kapital tələb edən yeni infrastruktur layihələrinin reallaşdırılmasında geniş istifadə edilə bilər.
- *Xarici investisiya qoyuluşları ilə bağlı bütün rəsmi prosedurların "bir pəncərə" prinsipi əsasında həyata keçirilməsi.* Bu baxımdan Türkiyədə Regional İnkişaf Agentlikləri və Yunanıstanda İnvestisiyaların Təşviqi Agentliyinin təcrübəsindən istifadə daha məqbul hesab oluna bilər. Belə ki, bu təcrübələrə əsaslanaraq, Azərbaycan Respub-

likası İqtisadi İnkişaf Nazirliyi nəzdində xarici investorlara məsləhətlər verən və investisiya qoyuluşu ilə bağlı bütün rəsmi əməliyyatları investorun adından həyata keçirən müvafiq struktur formalaşdırıla bilər. Eyni zamanda, bu struktur "on-line" rejimdə də fəaliyyət göstərməli və xarici investorların investisiya qoyuluşu ilə bağlı rəsmi prosedurların gedişini ölkə xaricindən izləmələrinə şərait yaratmalıdır.

- *Təkmil əmək münasibətlərinin formalaşdırılması.* Bu baxımdan əmək bazarının təşkilatlanma səviyyəsi yüksəldilməli, yüksək ixtisaslı yerli iş qüvvəsi potensialı genişləndirilməli, işçi işəgötürmə və işdən azadetmə, xüsusilə də, əcnəbi işçi çalışdırma ilə bağlı rəsmi prosedurların sadələşdirilməsi istiqamətində tədbirlər davam etdirilməldir.
- *İqtisadiyyatda sağlam rəqabətin təmin edilməsi.* Bu istiqamətdə, xüsusilə, ölkə iqtisadiyyatında funksional rəqabətin inkişaf etdirilməsi məqsədilə bu sahədəki qanunvericilik təkmilləşdirilməli və sərtləşdirilməli, eyni zamanda, bu siyasəti həyata keçirən və geniş səlahiyyətlərə malik olan (valyuta, kredit, kapital, əmtəə və xidmət bazarlarının sağlam və nizamlı fəaliyyətini təmin edən və bunu inkişaf etdirən, həmçinin, bu bazarlarda ortaya çıxacaq inhisarlaşma meyillərinin qarşısını alan) "Prezident yanında Rəqabət Siyasəti üzrə Dövlət Komissiyası" modelində rəsmi struktur formalaşdırılması müzakirəyə çıxarılmalıdır.
- *Ölkənin beynəlxalq iqtisadi-hüquqi sistemlə inteqrasiyasının dərinləşdirilməsi.* Bu istiqamətdə, xüsusilə, Avropa İttifaqı "Yeni Qonşuluq Siyasəti" və DTT-yə üzvlük çərçivəsində islahatların sürətləndirilməsi və investisiya fəaliyyətini təminat altına alan beynəlxalq qanunvericiliyin ölkədə icra səviyəsinin yüksəldilməsi zəruridir.

## 2. İqtisadiyyatın rəsmi sektorunun cəlbediciliyinin artırılması sahəsində

Azərbaycanda qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması sahəsində rəsmi sektorun cəlbediciliyinin artırılması istiqamətində görülən mövcud işlərin əhəmiyyətini qeyd etməklə yanaşı, bu siyasətin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsini də zəruri hesab edirik:

**2.1.** Vergi yükünün azaldılması sahəsində son illər müəyyən işlər görülsə də, Azərbaycanın fiskal azadlıq indeksinin hələ də bəzi Müstəqil Dövlətlər Birliyi ölkələrindən aşağı, firmaların ödədikləri vergilərin mənfəətlərindəki payı göstəricisinin isə yuxarı olduğu nəzərə alınaraq, bu istiqamətdə tədbirlər davam etdirilməlidir. Bu baxımdan aşağıdakıların həyata keçirilməsi effektli ola bilər:

- *Gəlir vergisində vahid dərəcə sisteminə keçilməsi.* Son illər Estoniya, Slovakiya, Gürcüstan kimi ölkələrdə də tətbiq olunan və uğurlu nəticələr doğrumuş bu sistem həm gəlir vergisi dərəcəsini azaltmaqla, həm də vergi mükəlləflərinin yüksək gəlir vergisi dərəcəsindən yayınma cəhdlərini ortadan qaldırmaqla gəlirlərin bəyan edilməsinə, həmçinin, düzgün bəyan edilməsinə müsbət təsir göstərəcəkdir. Bu baxımdan hazırda ölkədə tətbiq olunan gəlir vergisi dərəcələrinin Gürcüstanda olduğu kimi vahid dərəcə -12 faizlə əvəz edilməsi imkanlarına baxılmalıdır.
- Gəlir vergisində vergi tutulmayan məbləğin artırılması. Hazırda gəlir vergisində tətbiq edilən vergi tutulmayan məbləğin minimum həyat standartlarına o qədər də uyğun olmadığını nəzərə alaraq, bu məbləğin qeyd olunan istiqamətdə artırılması effektli ola bilər. Xüsusilə, nəzərə almaq lazımdır ki, bu dövlət sektorunda çalışanların xalis

əməkhaqlarının önəmli həcmdə yüksəlməsinə imkan verəcəkdir.

- *Sadələşdirilmiş vergi sisteminin əhatə dairəsinin genişləndirilməsi.* Hazırda Azərbaycanda sadələşdirilmiş verginin tətbiqi zamanı müəyyənləşdirilmiş vergi tutulan əməliyyatların həcmi göstəricisi bəzi ölkələr ilə müqayisədə aşağıdır. Bu baxımdan, sadələşdirilmiş vergi növünün bütövlükdə ölkədə kiçik sahibkarlıq subyektlərini əhatə etməsinə çalışılmalıdır ki, bunun üçün də həmin vergi növü üzrə vergi tutulan əməliyyatların həcmi tədricən Azərbaycan Respublikası Nazirlər Kabinetinin kiçik sahibkarlıq subyektlərinin müəyyənləşdirilməsilə bağlı təsbit etdiyi meyarlara uyğunlaşdırılması effektli ola bilər.
- *İkiqat vergitutmanın aradan qaldırılmasının əhatə dairəsinin genişləndirilməsi.* Hazırda 41 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında müvafiq dövlətlərarası sazişlər bağlansa da, hesab edirik ki, bu prosesin Azərbaycanın iqtisadi əlaqədə olduğu bütün ölkələri əhatə etməsinə çalışılmalıdır.
- *Həcmi müəyyən məbləğdən aşağı olan "part-time" və "kiçik işlər"in simvolik şəkildə vergitutmaya cəlb olunması.* Almaniyada tətbiq olunan və qeyd olunan istiqamətdə qeyri-rəsmiliyin ciddi şəkildə azalmasına xidmət edən bu mexanizm Azərbaycanda da tətbiq oluna bilər. Belə ki, bu mexanizmə görə müəyyən məbləğə qədər (Almaniyada 325 Avro) işlər simvolik dərəcə ilə vergiyə cəlb olunacaq, həmçinin, sosial müdafiə ayırmalarından da azad olunacaqdır.
- *Qeyri-rezidentlər üçün vergi yükünün azaldılması.* Hazırda bu sahədə vergitutmanın nisbətən çətin olduğu nəzərə alınaraq, xüsusilə, gəlir və ödəmə mənbəyində tutulan verginin azaldılması və sadələşdirilməsi mümkündür. Fikrimizcə, bu sahədə Monteneqro təcrübəsi də öyrənilməklə, günlük vahid verginin tətbiq edilməsi imkanları araşdırıla bilər.
- *Xarici vətəndaşların ölkə daxilində ödədikləri ƏDV-nin gömrük çıxış məntəqələrində onlara geri qaytarılması (refund) mexanizmlərinin inkişaf etdirilməsi.* Bu, xarici vətəndaşların ölkə daxilindəki satınalmaları üzərində vergi yükünü azaltmaqla yanaşı, onları həmin əməliyyatları rəsmiləşdirməkdə də maraqlı edəcəkdir.
- *Şəxsi evlərin və mənzillərin tikintisi və təmirilə bağlı xidmətlərdə ƏDV dərəcəsinin aşağı salınması və bu xərclərin xidmət alan şəxslərin gəlir vergisi ödəmələrində vergi çıxılan məbləğə aid edilməsi.* Bu, tərəflər arasında göstərilən xidmətin rəsmiləşdırılməməsi və ya düzgün rəsmiləşdirilməməsilə bağlı mövcud mənafe birliyinin ciddi şəkildə ortadan qaldırılmasına xidmət edəcəkdir.
- *Kredit kartları ilə ödəmələrə vergi güzəştinin tətbiq edilməsi.* Bu, ölkədə nağdsız hesablaşmaları stumullaşdırmaqla yanaşı, gündəlik alış-verişlərdə vergidən yayınmanın azaldılmasına da xidmət edəcəkdir. Cənubi Koreyada da mövcud olan bu mexanizmlə Azərbaycanda kredit kartları ilə həyata keçirilən ödəmələrə nisbətən aşağı dərəcəli ƏDV tətbiq edilə bilər.
- *Sosial müdafiə ayırmalarının işəgötürənlə işçi arasında tarazlı şəkildə bölüşdürülməsi.* Hazırda Azərbaycanda işçilərin sosial müdafiəsilə bağlı ayırmalar, demək olar ki, tamamilə işəgötürənlər tərəfindən həyata keçirilir və bu da xüsusilə özəl sektorda işəgötürənləri işçilərini qeyri-rəsmi şəkildə çalışdırmaqda daha çox maraqlı edir. Bu baxımdan Latviya, Polşa və Sloveniyada olduğu kimi tədricən sosial müdafiə ayırması yükünün bir hissəsinin işçilərin üzərinə ötürülməsi effektli olacaqdır.

**2.2.** Forması, vasitələri və əhatə dairəsi ciddi şəkildə düşünülməklə seçilən maliyyə amnistiyasının verilməsi. Fikrimizcə, ölkədə həyata keçiriləcək bu amnistiya aşağıdakı komponentləri özündə birləşdirməlidir:

- *Parlament tərəfindən qəbul olunan qanunla tənzimlənməsi*. Bu, ölkə vətəndaşlarının amnistiyaya qədər qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə bağlı hər hansı hüquqi məsuliyyətə cəlb olunmayacaqlarının etibarlı təminatı olacaqdır.
- *Konkret zaman aralığında həyata keçirilməsi.* Amnistiya zamanı bəyan edilmiş zaman aralığına qəti əməl edilməsi ölkə vətəndaşlarının prosesdə iştirakını sürətləndirəcəkdir.
- Birdəfəlik olduğunun bəyan edilməsi. Amnistiya zamanı onun birdəfəlik olduğunun elan edilməsi ölkə vətəndaşlarında sonradan belə bir fürsətin ortaya çıxmayacağı fikrini formalaşdıracaq və onların amnistiya prosesində fəal iştirakını təmin etməyə xidmət edəcəkdir.
- *Konfidensiallığın təmin edilməsi.* Amnistiya yolu ilə leqallaşdırılacaq gəlir və onların sahiblərilə bağlı informasiyaların dövlət tərəfindən tam şəkildə gizliliyinin təmin olunacağının bəyan edilməsi daha böyük məbləğdə qeyri-rəsmi gəlirlərin prosesə cəlbini təmin edəcəkdir.
- *Amnistiyadan sonra qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə bağlı cəzalandırma və nəzarət sistemlərinin ciddi şəkildə gücləndiriləcəyinin rəsmi olaraq bəyan edilməsi.* Bu, ölkə vətəndaşlarında gələcəkdə qeyri-rəsmi iqtisadi fəaliyyətlərin davam etdirilməsinin çətinləşəcəyi fikrini formalaşdıracaq və onları qeyri-rəsmi gəlirlərini amnistiya yolu ilə leqallaşdırmağa sövq edəcəkdir.
- *Amnistiyanın əvvəllər bu tipli fəaliyyətlərlə bağlı hüquqi məsuliyyətə cəlb edilmiş şəxsləri və qeyri-rəsmi iqtisadiyyatın kriminal sektorunda formalaşan gəlirləri əhatə etməməsi.*
- *Geniş iştirakçılığın təmin edilməsi.* Bu baxımdan amnistiya Azərbaycan vətəndaşlarının ölkədaxili qeyri-rəsmi gəlirlərilə yanaşı, ölkə xaricindəki qeyri-rəsmi gəlirlərini də əhatə etməlidir. Həmçinin, amnistiyanın həm milli səviyyədə, həm də ölkə vətəndaşlarının ən çox fəaliyyət göstərdikləri ölkələri də əhatə edəcək səviyyədə effektli maarifləndirmə kampaniyaları ilə müşayiət olunması geniş iştirakçılığın təmin olunması və prosesin qanunvericiliyə uyğun şəkildə tamamlanması baxımdan əhəmiyyətlidir.
- *Qeyri-rəsmi gəlirlərin, əsasən, dövlətin səhm-nəzarət paketinə sahib olduğu banklarda açılan və əmanətlərin sığortalanması sisteminə aid olan xüsusi hesablara daxil edilməsi yolu ilə leqallaşdırılması.* Bankın dövlətin nəzarətində olması və hesablardakı əmanətlərin sığortalanması prosesin ölkə vətəndaşları qarşısında etibarlılığını artıracaqdır.
- *Seçim imkanının təmin edilməsi.* Leqallaşdırma qeyri-rəsmi gəlirlərin əmanətlər şəklində banklara yatırılması ilə yanaşı, dövlət istiqrazlarının alınması, dövlət mülkiyyətinin özəlləşdirilməsində iştirak kimi yollarla da həyata keçirilə bilər ki, bu da prosesin cəlbediciliyinin artırılmasına xidmət edəcəkdir.

**2.3.** Ölkədə son illər sahibkarlığın tənzimləmə yükünün azaldılması istiqamətində inqilabi xarakterli addımlar atılsa da, bu prosesin aşağıdakı istiqamətlər üzrə də davam etdirilməsi zəruridir:

- *"Bir pəncərə" sisteminin biznes fəaliyyətinin digər mərhələlərini də əhatə edəcək*

*şəkildə genişləndirilməsi.* Belə ki, hazırda ölkədə “bir pəncərə” sistemi, əsasən, biznesə başlama mərhələsində tətbiq olunduğundan mövcud fəaliyyətin genişləndirilməsi və dayandırılması kimi mərhələlər bu sistem tərəfindən əhatə olunmur. Bu baxımdan, sahibkarlıq üzərində tənzimləmə yükünün daha da azaldılması məqsədilə, qarşıdakı illərdə “bir pəncərə” sisteminin Fransada tətbiq olunan “Müəssisə Formallıqları Mərkəzi”nin (C.F.E.) təcrübəsi əsasında qeyd olunan istiqamətləri əhatə etməklə genişləndirilməsi zəruridir.

- *Vergi və sosial müdafiə sahəsində bürokratik prosedurların sadələşdirilməsi*. Bu baxımdan ilk növbədə vergi sisteminin ideal vergitutma prinsipləri (ümumilik, ədalətlilik, bərabərlik, qanunilik, müəyyənlik, açıqlıq, səmərəlilik, uyğunluq, iqtisadilik, stabillik, çeviklik, qətilik) istiqamətində təkmilləşdirilməsi davam etdirilməlidir. Həmçinin, müvafiq inzibati-hüquqi və texniki təkmilləşmələr aparılmaqla, firmaların bir ildə vergi ödəmələrinin sayı və bu ödəmələrə sərf etdikləri vaxt göstəricilərinin minimuma endirilməsinə nail olunmalıdır. Eyni zamanda, Rusiya, Özbəkistan, Sloveniya, Yeni Zelandiya, Bolqarıstan, Rumıniya, Albaniya, Slovakiya, Serbiya kimi ölkələrdə tətbiq edilən məcburi sosial sığorta ayırmalarının da vergi idarələri tərəfindən yığılması mexanizminin formalaşdırılması effektli ola bilər. Belə ki, bu mexanizmin tətbiqi sahibkarların tənzimləmə yükünü azaltmaqla yanaşı, sosial müdafiə ayırmalarının daha effektli şəkildə toplanmasına və bununla bağlı dövlət xərclərinin azalmasına da xidmət edəcəkdir.
- *İdxal-ixrac əməliyyatlarının sadələşdirilməsi.* Bu istiqamətdə gömrük prosedurları mümkün dərəcədə avtomatlaşdırılmaqla idxal və ixrac əməliyyatlarına sərf olunan gün və sənədlərin sayının, həmçinin də orta hesabla hər konteyner üçün əməliyyat xərcinin daha da azaldılmasına çalışılmalıdır.
- *Lisenziyalaşdırmanın sadələşdirilməsi.* Bu baxımdan, son illər Gürcüstan, Uqanda və Tanzaniyada uğurla tətbiq olunan avtomatik lisenziyalaşdırma və lisenziyaların yeniləşdirilməsi sistemini tətbiq etmək mümkündür. Bu mexanizmin tətbiqi lisenziyalaşdırma prosedurlarının sayının, onlara sərf olunan günlərin və orta lisenziyalaşdırma xərclərinin ciddi miqyasda azaldılmasına imkan verəcəkdir.
- Sərhədyanı ticarətin inkişaf etdirilməsi. Ölkədə bu mexanizmin formalaşdırılması və inkişafı sərhəd bölgələrində iqtisadi fəaliyyətlər üzərindəki tənzimləmə yükünü mühüm dərəcədə azaltmaqla, qaçaqmalçılığın və qeyri-rəsmi iqtisadi fəaliyyətlərin məhdudlaşdırılmasına mühüm təsir göstərəcəkdir.
- *Əmək qanunvericiliyinin çevikliyinin artırılması.* Bu istiqamətdəki tədbirlərə ilk növbədə natamam iş vaxtını və əmək funksiyalarının reallaşdırılmasının qeyri-standart formalarını nəzərdə tutan işlərə qanunla icazə verilməsi və onların tənzimlənməsi aiddir. Bu baxımdan, iqtisadiyyatda əvəzçiliklə (“part-time”) işləmək imkanlarının genişləndirilməsi (tele-iş və evə iş verilməsi də daxil olmaqla), özünüməşğulların və aqrar sektorda çalışan mövsümü işçilərin qeydiyyat prosedurlarının sadələşdirilməsi, sosial müavinət alan rəsmi qeydiyyatlı işsizlərə əvəzçiliklə işləmək imkanının verilməsi (Çexiya, Fransa, Birləşmiş Krallıqda olduğu kimi), iqtisadi cəhətdən fəal olmayan əhaliyə əvəzçiliklə əmək müqavilələri bağlamaq imkanının yaradılması (Slovakiyada olduğu kimi) kimi tədbirlər effektli ola bilər və qeyd olunan istiqamətlərdə qeyri-rəsmi məşğulluğun məhdudlaşdırılmasına müsbət təsir göstərər.

- Böyük biznes mərkəzlərində dövlət qurumlarının mobil bürolarının açılması. Bu, xüsusilə, bütün rayonlarda yerli idarələri olmayan dövlət qurumlarına aiddir ki, bunların da başında vergi idarələri gəlir. Vergilər Nazirliyinin son dövlər tətbiq etdiyi kompyuter terminalları modelindən də bu məqsədlə istifadə etmək mümkündür.
- *Patent vergi sisteminin (patent tax system) əhatə dairəsinin genişləndirilməsi.* Fəaliyyətlərin vergitutmaya cəlb edilməsi əvəzinə lisenziyalaşdırılaraq patent alınmasını nəzərədə tutan patent vergi sistemi, hazırda ölkdə sərnişindaşınma, küçə ticarəti kimi bir sıra fəaliyyət sahələrində müxtəlif rəsmi qurumlar tərəfindən tətbiq edilir. Fikrimizcə, bu sistemin qeyri-rəsmiliyin nisbətən geniş yayıldığı fərdi repititorluq xidmətləri üzrə Təhsil Nazirliyi tərəfindən, fərdi əmlak bazarı vasitəçilik xidmətləri ("makler") üzrə və səyyar satıcılıq üzrə bələdiyyələr tərəfindən və.s tətbiq edilməsi mümkündür.
- *Ev təsərrüfatı xidmətləri üçün xidmət vauçerlərinin (çeklər) tətbiq edilməsi.* Almaniya, Fransa, Balçika kimi Avropa ölkələrində də tətbiq olunan bu sistemlə ev təsərrüfatları çərçivəsində tikinti, təmir, təmizlik, dayəlik və digər işlərin rəsmiləşdirilməsinin sadələşdirilməsi mümükündür. Belə ki, bu növ xidmətlərdən istifadə etmək istəyənlər bir növ əmək müqaviləsi rolunu oynayan bu tip vauçeriləri banklardan müəyyən qiymətə alacaq və xidmətindən istifadə etdiyi şəxslərə təqdim edəcəkdir. Vauçeri alanlar da onu banklara təqdim edərək, əməkhaqqlarını ala biləcəkdir. Ancaq sistemin tətbiqində müəyyən stimullaşdırıcı mexanizmlər də nəzərdə tutulmalıdır. Belə ki, bu növ işlərin qarşılığının nağd ödənilməsi ilə müqayisədə vauçerlər vasitəsilə ödənilməsində həm nisbətən aşağı dərəcə ilə vergi və sosial sığorta ayırmasının banklar tərəfindən tutulması, həm də ödənilən vauçerin dəyərinin işəgötürənlərin (ev təsərrüfatı sahibləri) ödədiyi gəlir vergisindən çıxılması qanunla təsbit edilməlidir ki, tərəflər bu sistemdən istifadədə maraqlı olsunlar.
- *İnşaat sektorunda podrat müqaviləsinə qoşulan firmaların sosial müdafiə ilə bağlı ödəmələrinin onların adından podratçı firma tərəfindən ödənilməsi məcburiliyinin qanunla təsbit edilməsi.* Almaniya, Niderland, Birləşmiş Krallıq kimi ölkələrdə tətbiq edilən bu mexanizm podrat müqaviləsinə qoşulan firmaları sosial müdafiə ödəmələrilə bağlı rəsmi prosedurlardan azad etməklə yanaşı, bu sahədəki qeyri-rəsmi məşğulluğun məhdudlaşmasına da xidmət edəcəkdir.

**2.4.** Sahibkarlığın inkişafının dövlət tərəfindən təşviqi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməlidir. Məhz rəsmi sektorda effektiv dövlət təşviqi mexanizmlərinin mövcudluğu, sahibkarların onlardan faydalanmaq məqsədilə bu sektora yönəlməsinə ciddi müsbət təsir göstərəcəkdir. Əsasən, qeyri-rəsmiliyin nisbətən geniş yayıldığı kiçik və orta sahibkarlığı əhatə etməli olan bu mexanizmlərin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsi effektli ola bilər:

- *Yeni sahibkarlıq subyektləri üçün dövlət təşviqlərinin genişləndirilməsi.* Bu istiqamətdə xüsusilə qeyri-rəsmiliyin nisbətən geniş yayıldığı kiçik və orta sahibkarlıq fəaliyyətinə yeni başlayanlara dövlət və bələdiyyə tərəfindən ərazilərin və binaların güzəştli şərtlərlə kirayəyə verilməsi və ya güzəştli kreditlə satışının həyata keçirilməsi, müxtəlif maliyyə institutlarından aldıqları kreditlərə dövlət təminatının verilməsi və ya kredit faizlərinin ödənilməsi, bəzi sahələr üzrə faizsiz kredit ayrılması kimi mexanizmlərin formalaşdırılması bu növ sahibkarlar üçün rəsmi sektorun cəlbediciliyini

mühüm dərəcədə artıracaqdır.

- *Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditləşdirmə mexanizminin təkmilləşdirilməsi.* Bu baxımdan ilk növbədə verilən kreditlərin həcminin artırılması və kredit faizlərinin daha da azaldılması istiqamətində səylər davam etdirilməlidir. İkincisi, ölkədə risk kapitalının (veture) kifayət qədər məhdud olduğunu, ancaq firmaların innovativ fəaliyətlərinin maliyyələşdirilməsinin zəruriliyini nəzərə alaraq, Sahibkarlığa Kömək Milli Fondunun kredit portfelində iqtisadiyyatın risk kapitalı ehtiyacını mühüm dərəcədə təmin edəcək xüsusi kredit proqramının formalaşdırılmasına ehtiyac vardır. Məhz bu növ güzəştli kreditlərlə, iqtisadiyyatda kifayət qədər riskli, ancaq innovativ xarakterli layihələrin maliyyələşdirilməsi ehtiyacını müəyyən qədər ödəmək mümkündür.
- *Aqrar sektorda tətbiq edilən təşviq mexanizmlərinin səmərəliliyinin artırılması.* Bu istiqamətdə ilk növbədə bütün vergilərdən azadolma formasında tətbiq olunan vergi güzəştinin səmərəliliyi düzgün şəkildə təhlil olunmalı və qarşıdakı illərdə bu mexanizmin ortadan qaldırılaraq, toplanan vergi gəlirlərinin bu sektorda ünvanlı yardımlara yönəldilməsi məsələsinə baxılmalıdır. İkincisi, hazırda tətbiq edilən güzəştli xammal-yanacaq və texnika ilə təminat və hər hektar əkinə görə əvəzsiz maliyyə yardımı mexanizmlərinin də əhatə dairəsinin genişləndirilməsi və cəlbediciliyinin artırılmasına ehtiyac vardır. Üçüncüsü, bu sektorda istehsalçılara dövlət tərəfindən müəyyən qiymət səviyyəsinin qorunması formasında təşviq mexanizminin qurulmasına da ehtiyac vardır. Bu baxımdan “ikili qiymət” mexanizmi (istehsalın müəyən hissəsinin müəyyən qiymətdən dövlət tərəfindən satın alınması və qalan hissəsinin azad bazarda reallaşdırılması) və “hədəf qiyməti və aradakı fərqin ödənilməsi” mexanizmlərinin (məhsulun bazar qiyməti dövlətin hədəflədiyi qiymətdən aşağı olarsa, aradakı fərqin dövlət tərəfindən istehsalçıya ödənilməsi) tətbiqi effektli ola bilər.
- *Sahibkarlığa dövlət tərəfindən maarifləndirmə və informasiya təminatı yardımlarının genişləndirilməsi.* Bu istiqamətdə ilk növbədə ABŞ və digər Avropa ölkələrində olduğu kimi sahibkarlıqla bağlı orta məktəb proqramlarına xüsusi dərslərin salınması zəruridir ki, bu da əhalidə gənc yaşlardan başlayaraq, sahibkarlıq şüurunun formalaşmasına xidmət edəcəkdir. İkincisi, hazırda bu istiqamətdə fəaliyyət göstərən əsas rəsmi struktur kimi Bakı Biznes Tədris Mərkəzinin “Azərbaycan Biznes Tədris və Konsaltinq Mərkəzi” modelində imkanlarının genişləndirilməsinə və ölkənin bütün rayonlarında müvafiq strukturlarının formalaşdırılmasına ehtiyac vardır. Üçüncüsü, dövlət ali məktəblərində sahibkarlığın maarifləndirilməsi və informasiya təminatı sahəsində ödənişsiz və effektiv şəkildə fəaliyyət göstərə bilən müvafiq araşdırma və konsaltinq strukturlarının qurulması və inkişaf etdirilməsi zəruridir. Nəhayət, bu istiqamətdəki elmi və populyar nəşrlərin, həmçinin də televiziya və radyo verlişlərinin dövlət tərəfindən maliyyələşdirilməsi mexanizmlərindən istifadə olunmalıdır.
- *Sahibkarların mükafatlandırılma mexanizmlərinin təkmilləşdirilməsi.* Belə ki, uğurlu və intizamlı sahibkarların dövlət tərəfindən effektiv mükafatlandırılma mexanizmlərinin qurulması rəsmi sektorun cəlbediciliyinin artırılmasına da öz müsbət təsirini göstərəcəkdir. Bu baxımdan dövlət tərəfindən “ilin sahibkarı”, “ilin vergi rekordçusu” kimi mükafatların təsis edilməsi, həmçinin qeyri-hökumət təşkilatlarının bu tipli mükafatlandırma mexanizmlərinin formalaşdırılmasının təşviqi zəruridir.

**2.5.** Rəsmi sektorda biznes infrastrukturunun inkişaf etdirilməsi tədbirləri davam etdirilməli və bu proses xüsusilə aşağıdakı istiqamətləri əhatə etməlidir:

- *Kapital bazarının inkişaf etdirilməsi.* Ölkədə kapital bazarının inkişaf etdirilməsi şirkətlərin maliyyə resurslarına çıxış imkanlarını artıracağından, əhali yığımlarının daha səmərəli şəkildə istifadəsinə şərait yaradacağından, həmçinin də bazar subyektləri üzərində şəffaflıq tələblərini gücləndirəcəyindən rəsmi sektorun cəlbediciliyinin yüksəldilməsində də mühüm rol oynayacaqdır. Bu baxımdan ölkədə qiymətli kağızlar bazarının inkişafının təşviqi, Bakı Fond Birjasının fəaliyyətinin genişləndirilərək, beynəlxalq kapital bazarlarına inteqrasiyasının gücləndirilməsi və korporativ idarəetmə ənənələrinin mənimsənilməsi istiqamətlərində həyata keçirilən mövcud tədbirlər daha da genişləndirilməlidir.
- *Sığorta bazarının inkişaf etdirilməsi.* Sığorta bazarının inkişaf etdirilməsi bazar subyektlərinin rəsmi sektorda qarşılaşa biləcəkləri riskləri minimumlaşdırmaqla bu sektorun cəlbediciliyinin artırılmasına xidmət edəcəkdir. Bu baxımdan ölkədə sığorta sisteminin ən zəif inkişaf etdiyi, ancaq kifayət qədər də zəruri olduğu aqrar sektor xüsusi əhəmiyyət kəsb edir.
- *Sənaye şəhərciklərinin formalaşdırılması.* Ölkədə sənaye şəhərciklərinin formalaşdırılması, xüsusilə kiçik və orta sahibkarların iqtisadi resurslara çıxış imkanlarını artırmaq və əsas xərclərini aşağı salmaqla, rəsmi sektorun cəlbediciliyinin artırılmasına mühüm təsir göstərəcəkdir. Bu baxımdan ölkədə sənaye şəhərciklərinin formalaşdırılması ilə bağlı aparılan rəsmi çalışmaların qısa müddətdə tamamlanması və müxtəlif təyinatlı sənaye şəhərciklərinin real olaraq fəaliyyətə başlaması zəruridir.
- *İxtisaslaşmış biznes konsaltinq xidmətlərinin inkişaf etdirilməsi və əhatə dairəsinin genişləndirilməsi.* Sahibkarların rəsmi sektorda daha uğurlu fəaliyyət göstərmələri və bu sektorun tələblərinə daha asan uyğunlaşmaları baxımından biznes konsaltinq xidmətlərinin böyük rolu vardır. Belə ki, ölkə iqtisadiyyatının rəsmi sektorunda inkişaf etmiş biznes konsaltinq xidmətlərnin formalaşdırılması onun cəlbediciliyinin artırılmasına da xidmət edəcəkdir. Bu baxımdan Azərbaycanda xüsusilə müstəqil vergi, muhasibat, investisiya və məşğulluq sahələrində konsaltinq xidmətlərinin inkişafının dövlət tərəfindən stimullaşdırılması zəruridir və bu istiqamətdə qeyri-hökumət təşkilatlarının imkanlarından geniş istifadə edilməlidir.
- *Sərgi və yarmarka infrastrukturunun formalaşdırılması.* Bu istiqamətdə dövlət tərəfindən ölkə daxilində beynəlxalq sərgi və yarmarkaların keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edən infrastruktur obyektlərinin formalaşdırılması və inkişaf etdirilməsi, sərgi və yarmarkaları təşkil edəcək özəl sektor firmalarının inkişafının dəstəklənməsi kimi tədbirlər həyata keçirilməlidir.

**2.6.** Ölkədə dövlət tərəfindən sahibkarların hüquq və mənafelərinin qorunması istiqamətindəki tədbirlər daha da genişləndirilməlidir. Bu baxımdan aşağıdakıların həyata keçirilməsi effektli ola bilər:

- *Sahibkarların təşkilatlanma səviyyəsinin yüksəldilməsi.* Dövlətlə özəl sektor arasında koordinasiya səviyyəsinin yüksəldilməsi və sağlam dialoq zəmininin inkişaf etdirilməsi baxımdan sahibkarların təşkilatlanmasının gücləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi zəruridir. Bu baxımdan ölkədə hazırda daha çox könüllü xarakter daşıyan bu təşkilatlanma mexanizminin müəyyən qədər dövlət tərəfindən

tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, Qərb ölkələrində də geniş yayılmış təcrübəyə əsaslanaraq, iqtisadiyyatın bütün sektorları üzrə işəgötürənlərin müvafiq palatlarının formalaşdırılması və sahibkarlıq subyektləri dövlət qeydiyyatına alındığı zaman onlardan aid olduğu müvafiq işəgötürən palatasına qeydiyyatları ilə bağlı sənədin də tələb edilməsi mümkündür. Eyni zamanda bəzi rəsmi prosedurlarda sahibkarlıq subyektlərindən müvafiq sahənin işəgötürənlər palatasına üzvlüyü ilə bağlı sənədlərin tələb edilməsi də mümkündür ki, bu da sahibkarların təşkilatlanmasının gücləndirilməsinə xidmət edəcəkdir.

- *Rəsmi prosedurlardakı gecikmələrin ortadan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi.* Bu baxımdan Hindistanda olduğu kimi rəsmi prosedurlardakı gecikmələrə görə həmin rəsmi qurumlar tərəfindən iqtisadi subyektlərə müəyyən kompensasiyaların ödəniləcəyinin qanunlarda öz əksini tapması, Bosniyada olduğu kimi bazar subyektlərilə bağlı bəzi məsələlərə baxılması üçün məhkəmələrə konkret vaxt limitlərinin təyin edilməsi və buna bənzər digər tədbirlərin həyata keçirilməsi effektli ola bilər.
- *İntellektual mülkiyyət hüquqlarının qorunması istiqamətində tədbirlərin gücləndirilməsi.* Ölkədə ümumilikdə mülkiyyət hüquqlarının qorunması sahəsində çox ciddi tədbirlər görülsə də, intellektual mülkiyyət hüquqlarının qorunması ilə bağlı bu tədbirlərin daha da gücləndirilməsi zəruridir. Fikrimizcə, hazırda yerli və xarici sahibkarların da tez-tez üzərində dayandığı bu məsələnin həlli məqsədilə, intellektual mülkiyyət obyektlərilə bağlı milli səviyyədə geniş informasiya bazasının formalaşdırılmasına, müvafiq qanunvericiliyin sərtləşdirilməsinə və bu sahəyə nəzarət edən dövlət qurumunun səlahiyyət və funksiyalarının genişləndirilməsinə ehtiyac vardır.

## 3. İqtisadiyyatın qeyri-rəsmi sektorunun cəlbediciliyinin azaldılması sahəsində

Azərbaycan iqtisadiyyatında qeyri-rəsmi sektorun cəlbediciliyinin azaldılması istiqamətində görülən mövcud işlərin əhəmiyyətini qeyd etməklə yanaşı, tədqiqatlarımıza əsaslanaraq, bu siyasətin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsini də zəruri hesab edirik:

**3.1.** Hazırda ölkədə qeyri-rəsmi iqtisadiyyatla mübarizə müxtəlif dövlət proqramları və dövlət strukturları tərəfindən həyata keçirilsə də, fikrimizcə bu siyasətin vahid dövlət strategiyasının hazırlanması və bir mərkəzdən koordinasiya edilməsinə ehtiyac vardır. Bu baxımdan aşağıdakı tədbirlərin reallaşdırılması zəruridir:

- *Qeyri-rəsmi iqtisadiyyatla mübarizə sahəsində vahid dövlət proqramının qəbul edilməsi.* Ölkədə qeyri-rəsmi sektorun bu və ya digər aspektləri ilə mübarizə ayrı-ayrı dövlət proqramlarında nəzərdə tutulsa da, bu günə qədər bu istiqamətdə vahid dövlət proqramı və ya fəaliyyət planı həyata keçirilməmişdir. Bu baxımdan hesab edirik ki, ölkədə Türkiyə Respublikasında da olduğu kimi bu istiqamətdə kompleks tədbirlər sistemini özündə birləşdirən və konkret illəri əhatə edən "Azərbaycan Respublikasında Qeyri-rəsmi İqtisadiyyatla Mübarizə (və ya leqallaşdırılması) sahəsində Dövlət Proqramı (və ya Milli Fəaliyyət Planı)" hazırlanaraq həyata keçirilməlidir. Həmçinin daha effektli Dövlət Proqramının (və ya Milli Fəaliyyət Planı) formalaşdırılması məqsədilə ilk növbədə ölkədə müxtəlif dövlət orqanlarının nü-

mayəndələri və elmi tədqiqatçılardan ibarət işçi qrupu tərəfindən qeyri-rəsmi sektorla bağlı geniş əhatəli rəsmi hesabat hazırlanmalıdır. Hesabatda Azərbaycanda qeyri-rəsmi sektorun formalaşma xüsusiyyətləri, əsas səbəbləri, doğruduğu sosial-iqtisadi nəticələr, makro səviyyəli və sektorlar üzrə kəmiyyət qiymətləndirmələri, qeyri-rəsmi iqtisadiyyatın məhdudlaşdırılması üçün tövsiyyə olunan müvafiq strategiyalar və onların reallaşdırılma mexanizmləri öz əksini tapmalıdır. Həmçinin onu da qeyd etməliyik ki, qəbul olunan vahid dövlət proqramı ilə yanaşı, qeyri-rəsmi iqtisadiyyatla bu və ya digər istiqamətlərdə mübarizə üzrə pilot proqramların həyata keçirilməsi də mümkündür. Bu istiqamətlər arasında ticarət sektorunda qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması, ayrı-ayrı regionlar və şəhərlər üzrə qeyri-rəsmi məşğulluğun leqallaşdırlması, qeyri-rəsmi özünüməşğulların leqallaşdırılması, qanunsuz əmək miqrasiyası ilə mübarizə, aqrar sektorda qeyri-rəsmi məşğulluğun leqallaşdırılması və.s mühüm əhəmiyyət kəsb edir.

- *Qeyri-rəsmi iqtisadiyyatla mübarizə sahəsində mərkəzi dövlət strukturunun formalaşdırılması.* Ölkə iqtisadiyyatında qeyri-rəsmi sektorun bu və ya digər aspektlərilə mübarizə aparacaq ayrı-ayrı dövlət strukturları yaradılsa da, qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması siyasətini formalaşdırıcı və koordinasiyaedici ixtisaslaşdırılmış mərkəzi dövlət strukturu mövcud deyildir. Bu baxımdan hesab edirik ki, Fransa, İtaliya, Türkiyə kimi ölkələrin təcrübəsindən çıxış edərək, Azərbaycanda müvafiq dövlət və qeyri-dövlət strukturlarının təmsilçilərindən ibarət olan Prezident yanında və ya İqtisadi İnkişaf Nazirinin rəhbərliyi ilə "Azərbaycan Respublikası Qeyri-rəsmi İqtisadiyyatla Mübarizə Koordinasiya Şurası (Koordinatorluğu və ya Komissiyası)" modelində bir struktur təsis edilməli və bu struktur yuxarıda qeyd etdiyimiz qeyri-rəsmi iqtisadiyyatla mübarizə sahəsində müvafiq dövlət proqramının (və ya milli fəaliyyət planının) icrasından məsul mərkəzi dövlət strukturu olmalıdır. Həmçinin, həyata keçiriləcək fəaliyyət planlarının regionlarda icra səviyyəsini daha da yüksəltmək məqsədilə, qeyd edilən mərkəzi strukturun hər rayon üzrə icra hakimiyyəti başçısının və ya onun iqtisadi məsələlər üzrə müavininin rəhbərliyində yerli bölmələrini də təşkil etmək mümkündür. Onu da qeyd etməliyik ki, yaradılacaq bu tipli rəsmi struktur daimi olmaya da bilər. Belə ki, bu strukturu proqram-məqsədli, başqa sözlə müvafiq dövlət proqramının icrası müddətində fəaliyyət göstərəcək rəsmi struktur kimi də formalaşdırmaq mümkündür.
- *Qeyri-rəsmi iqtisadiyyatla bağlı təkmil statistik informasiya bazasının formalaşdırılması.* Azərbaycanda qeyri-rəsmi iqtisadiyyatla mübarizədə dövlət siyasətinin inkişaf etdirilməsi zəruri olan istiqamətlərindən biri də bu sektorla bağlı mükəmməl rəsmi statistik informasiya bazasının formalaşdırılmasıdır. Bu istiqamətdə ilk növbədə Azərbaycan Dövlət Statistika Komitəsində fəaliyyət göstərən "Gizli iqtisadiyyat" bölməsinin imkanları genişləndirilməlidir. Belə ki, bu struktur qeyri-rəsmi iqtisadiyyatın kəmiyyət qiymətləndirməsi ilə bağlı çalışmalarında beynəlxalq metodologiyadan daha geniş şəkildə istifadə etməli, Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Gömrük Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi kimi dövlət qurumları ilə sıx əməkdaşlıq etməli və bu sahədəki monitorinqlərini, sorğu və anket tədqiqatlarını intensivləşdirməlidir. Eyni zamanda qeyri-rəsmi iqtisadiyyatın kəmiyyət qiymətləndirmələri təkcə makro səviyyədə deyil, sektorlar, regionlar və fəaliyyət

növləri üzrə də inkişaf etdirilməlidir. Bu baxımdan xüsusilə, qeyri-rəsmi məşğulluqla bağlı statistikanın təkmilləşdirilməsinə diqqət yetirilməlidir. Bunun üçün seçicilərin siyahıya alınması praktikasından da istifadə etməklə, ölkə, regionlar və sektorlar üzrə bütün qeyri-rəsmi məşğulların inventarizasiyası aparılmalıdır.

**3.2.** Qeyri-rəsmi iqtisadiyyatla mübarizədə cəzalandırma və nəzarət mexanizmlərinin daha da təkmilləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsi effektli ola bilər:

- *Cəzaların sərtləşdirilməsi.* Ölkədə qeyri-rəsmi sektorla bağlı bəzi cəzalar son illər sərtləşdirilsə də, ümumilikdə qeyri-rəsmi iqtisadiyyatla effektli mübarizə təcrübəsinə malik inkişaf etmiş ölkələrlə müqayisədə hələ də çox-çox yumuşaqdır. Bu baxımdan hesab edirik ki, ölkədə qeyri-rəsmi sektorla bağlı cəzaların çəkindiricilik funksiyasını gücləndirmək məqsədilə, ümumilikdə onlar sərtləşdirilməli (xüsusilə həbs, peşə fəaliyyətindən müddətli və müddətsiz məhrumetmə, yaşayış yerindən uzaqlaşdırma kimi cəzalar genişləndirilməli) və Vergilər Məcəlləsinin 56.1-ci maddəsindəki "vergi qanunvericiliyinin pozulması anından 3 il keçmişdirsə, şəxs həmin qanunvericiliklə bağlı hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz" müddəasındakı 3 il müddəti artırılmalıdır. Həmçinin cəzaların sərtləşdirilməsində maliyyə sanksiyaları ilə yanaşı, digər cəza növlərindən (xüsusilə bəzi dövlət xidmətlərdən məhrum edilmə) istifadə də effektli ola bilər. Onu da nəzərə almaq lazımdır ki, qeyri-rəsmi iqtisadiyyat əleyhinə cəzaların sərtləşdirilməsi bir tərəfdən bu sahədə çəkindiriciliyi artırdığı halda, digər tərəfdən də bu tipli fəaliyyətlərin cəmiyyətə mühüm zərərləri olduğu mesajını verməklə əhali üzərində maarifləndirici təsirə malik olacaqdır.
- *Qanunvericilikdə qeyri-rəsmi iqtisadi fəaliyyətlərə imkan verən boşluqların ortadan qaldırılması.* Bu baxımdan xüsusilə vergi, gömrük və əmək qanunvericiliyi qeyri-rəsmi iqtisadiyyatla mübarizə yönündə kompleks şəkildə ekspertiza olunmalı və müvafiq boşluqlar ortadan qaldırılmalıdır. Bu istiqamətdə xüsusilə qeyd olunan qanunvericilik aktlarında nəzərdə tutulmuş güzəştlərin minimuma endirilməsinə çalışılmalıdır. Çünki nəzarət sistemlərinin hələ də mükəmməl səviyyədə olmadığı şəraitdə bu tipli güzəştlərdən sui-istifadə potensialı da yüksək olaraq qalacaqdır.
- Vətəndaşlara vahid eyniləşdirmə nömrəsinin (ID) verilməsi. Bu sistemin tətbiqi hər bir vətəndaşın bütün iqtisadi əməliyyatlarının dövlət tərəfindən vahid bir kodla izlənilməsinə imkan verəcəkdir ki, nəticədə də eyni vətəndaşın müxtəlif iqtisadi əməliyyatları arasında uyğunsuzluqları ortaya çıxarmaq mümkün olacaqdır. Müvafiq dövlət qurumlarının verilənlər bazasının elektron qaydada bir-birinə inteqrasiyasının tələb olunduğu bu sistemə görə, vətəndaşa ömürboyu ona aid olacaq vahid eyniləşdirmə nömrəsi verilməli (bu adətən pasport nömrəsi olur) və bu nömrənin vətəndaş tərəfindən vergi, məcburi sosial sığorta, mülkiyyət və.s bağlı əməliyyatlarda istifadəsinin məcburiliyi təmin edilməlidir. Nəticədə, bir dövlət idarəsi istənilən vətəndaşın vahid eyniləşdirmə nömrəsindən istifadə etməklə onun digər iqtisadi əməliyyatları haqqında da informasiya əldə edərək müqayisə imkanlarına malik olacaqdır. Yəni bu sistemlə hər hansı bir vətəndaşın vergi orqanlarına bəyan etdiyi informasiyalarla, mülkiyyətlə bağlı əməliyyatları arasında, vergi orqanlarındakı registr məlumatları ilə sosial müdafiə orqanlarındakı registr məlumatları arasında, gömrük

orqanlarında qeydə alınmış idxal-ixrac əməliyyatları ilə vergi orqanlarına bəyan etdiyi əmtəə dövriyyəsi məlumatları arasında və.s mövcud ola biləcək uyğunsuzluqları ortaya çıxarmaq çox asanlaşacaqdır.

- *Vergi sistemində avto-nəzarət mexanizmlərinin inkişaf etdirilməsi.* Bu məqsədlə, ilk növbədə iqtisadiyyatda satıcı və alıcılar arasında qeyri-rəsmi iqtisadiyyatla bağlı mənafe birliyinin ortadan qaldırılması və istehlakçıların ödəniş qəbzlərini tələb etmələrinin stimullaşdırılması istiqamətində tədbirlər gücləndirilməlidir. Bu baxımdan alış-veriş qəbzlərinin vətəndaşların vergi ödəmələrində vergidən çıxılan məbləğ kimi nəzərə alınması imkanları genişləndirilməli, onlardan lotareya və müxtəlif sosial xidmətlərdə ödəmə çekləri kimi istifadə olunması mexanizmləri formalaşdırılmalıdır. İkincisi, müəyyən məbləğdən artıq ödəmələrin vətəndaşlar tərəfindən, müəyyən məbləğdən artıq əməliyyatların isə banklar tərəfindən vergi orqanlarına bildirilməsi məcburiliyi qanunla təsbit edilməlidir. Bu mexanizm yüksək məbləğli əməliyyatların iqtisadi subyektlər tərəfindən vergi orqanlarından gizlədilməsi imkanlarını məhdudlaşdıracaqdır.
- *Beynəlxalq mühasibat standartlarına keçidin sürətləndirilməsi.* Bu sahədə xüsusi dövlət proqramı qəbul edilsə də, işlər hələ də tamamlanmamışdır. Fikrimizcə ölkədə beynəlxalq mühasibat standartlarına keçidin tamamlanması iqtisadiyyatda uçot və nəzarət sistemlərinin daha da güclənməsinə imkan verməklə qeyri-rəsmi iqtisadi əməliyyatların məhdudlaşdırılmasına xidmət edəcəkdir.
- *Üçüncü şəxslərin qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə bağlı dövlət orqanlarını xəbərdar etməsinin təşviqi.* Ölkədə qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə bağlı üçüncü şəxslərin dövlət qurumlarını xəbərdar etməsinin zəruriliyi qanunlarda öz əksini tapsa da, bu şəxslərin stimullaşdırılması və ya mükafatlandırılması mexanizmləri qurulmamışdır. Bu baxımdan hesab edirik ki, Almaniyada olduğu kimi qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə məşğul olanlar haqqında dövlət orqanlarını xəbərdar edənlərin qorunacağı və mükafatlandırılacağı ilə bağlı müvafiq normalar qanunlarda öz əksini tapmalıdır.
- *Dövlət nəzarət qurumlarının maddi-texniki imkanlarının genişləndirilməsi.* Ölkədə son illər dövlət strukturlarının maddi-texniki imkanlarının genişləndirilməsi istiqamətində mühüm işlər görülsə də, hesab edirik ki, qeyri-rəsmi iqtisadiyyatla mübarizənin effektivliyini artırmaq məqsədilə müvafiq qurumların nəzarət sistemlərinin tamamilə avtomatlaşdırılması, elektronlaşdırılması və peyk texnologiyalarından da istifadə edərək, virtual iqtisadi məkanlara doğru genişləndirilməsi təmin edilməlidir. Bu baxımdan ölkədə elektron hökumətin formalaşdrılmasına istiqamətlənmiş tədbirlərin sürətlə tamamlanması zəruridir.
- *Qeyri-rəsmi iqtisadiyyatla mübarizə aparan dövlət qurumlarının təftiş potensialının inkişaf etdirilməsi.* Bunun üçün ilk növbədə təftiş xidmətlərinin profesionallığı ciddi şəkildə artırılmalı, təftişlərin əhatəsinin, auditor və mühasiblərin bu istiqamətdə səlahiyyət və məsuliyyət dairəsinin genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilməlidir. İkincisi, bəzi fəaliyyət sahələri üzrə səyyar yoxlamaların intensivliyi artırılmalıdır. Bu baxımdan pərakəndəsatış ticarət obyektləri, əyləncə mərkəzləri, özəl təhsil kursları və.s müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda əyləncə mərkəzlərindəki təftiş və yoxlamalar təkcə bu mərkəzlərin fəaliyyətini deyil, həmçinin də

onların xidmətlərindən istifadə edənlərin vergi ödəmələrini əhatə etməlidir. Üçüncüsü, bütün dövlət idarələrində təftişçilərin əmək haqqlarının ciddi şəkildə yüksəldilməsinə nail olunmalıdır. Çünkü yüksək əmək haqqının olmadığı şəraitdə təftişçilərin iqtisadi subyektlərlə qeyri-rəsmi sövdələşmələrə girmə potensialı da həmişə yüksək olacaqdır.

- *Müstəqil audit xidmətlərinin inkişaf etdirilməsi və onlardan istifadə praktikasının genişləndirilməsi.* Bu istiqamətdə ilk növbədə beynəlxalq auditor şirkətlərinin Azərbaycandakı fəaliyyətlərinin genişləndirilməsini stimullaşdırmaq, həmçinin də yerli auditor şirkətlərinin formalaşması və inkişafını təmin etmək zəruridir. İkincisi, ölkədə bazar subyektlərinin müstəqil audit xidmətlərindən istifadə etmələri təşviq edilməli, həmçinin də əksər hallarda bunun qanunlarla məcburiliyi təsbit edilməlidir. Xüsusilə, dövlət tərəfindən həyata keçirilən tenderlərdə, satınalmalarda və.s iştirak etmək istəyən bazar subyektləri üçün müstəqil audit prosesindən keçmə şərti qanunla təsbit edilməlidir. Bazar subyektlərinin bu tipli audit prosesindən keçmələri onların maliyyə-təsərrüfat fəaliyyətlərini mövcud qanunlara uyğunlaşdırma cəhdlərini artıracaq və qeyri-rəsmi iqtisadi fəaliyyətlərə yönəlmə stimullarını zəiflədəcəkdir.
- *Qeyri-rəsmi iqtisadiyyatla mübarizədə həmkarlar təşkilatlarının nəzarət imkanlarının artırılması.* Qeyri-rəsmi iqtisadiyyatın ən mənfi nəticələrindən birinin sosial müdafiə hüquqlarından məhrum işçi təbəqəsi yaratdığını nəzərə alaraq, həmkarlar təşkilatlarına qeyri-rəsmi iqtisadiyyat, xüsusilə də qeyri-rəsmi məşğulluq əleyhinə qismən də olsa təftiş və nəzarət tədbirləri həyata keçirmə səlahiyyətləri verilməlidir.
- *Qeyri-rəsmi iqtisadiyyatla mübarizə sahəsində dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi.* Ölkə iqtisadiyyatında qeyri-rəsmi sektor əleyhinə nəzarəti gücləndirmək məqsədilə müxtəlif qurumlar arasında "Birgə Fəaliyyət Protokolları" imzalanaraq, müvafiq koordinasiya sistemləri qurulmalı və bunlar mümkün olduğu qədər elektronlaşdırılmalıdır. Belə ki, Vergilər Nazirliyi ilə Dövlət Sosial Müdafiə Fondu arasında imzalanan protokol əsasında vergi orqanlarının açılan və bağlanan iş yerləri ilə bağlı tərtib etdikləri yoxlama sənədlərinin surətlərini Dövət Sosial Müdafiə Fonduna göndərmələri təmin edilə bilər. Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu və Daxili İşlər Nazirliyi arasında imzalanan müvafiq protokollarla Dövlət Yol Polisi əməkdaşlarının nəqliyyat sektorunda lisenziyaların alınması, əmək müqavilələrinin bağlanması və məcburi dövlət sosial sığorta qeydiyyatı üzrə təftişlər apararaq müvafiq protokolları, Pasport Qeydiyyatı idarələrinin isə ərazi üzrə işə qəbul olan və işdən çıxarılan işçilərin yaşayış qeydiyyatı ilə bağlı informasiyalarını bu qurumlara təqdim etmələri təmin edilə bilər. Həmçinin iqtisadi subyektlərin xarici valyuta əməliyyatlarına nəzarət etmək məqsədilə Vergilər Nazirliyi və Mərkəzi Bank arasında informasiya mübadiləsini nəzərədə tutan bu tipli protokollar imzalana bilər.
- *İqtisadiyyatda nağd hesablaşmaların məhdudlaşdırılması.* Ölkədə son illər nağdsız ödəmələrin inkişafı istiqamətində ciddi addımlar atılsa da, qeyri-rəsmi sektor əleyhinə nəzarət sistemlərini gücləndirmək məqsədilə nağd hesablaşmaların məhdudlaşdırılması istiqamətində tədbirlər intensivləşdirilməlidir. Prezidentin 2010-cu ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş Nazirlər Kabinetinin iclasında da toxunduğu bu məsələnin həlli məqsədilə, pərakəndə bank xidmətlərinin əhatə dairəsi və infrastrukturu (post terminallar, bankomatlar və.s) genişləndirilməli, əmək haqlarının tamamilə bankalar vasitəsilə ödənilməsi təmin edilməli, Argentina və Türkiyədə də tətbiq

edildiyi kimi müəyyən məbləğdən artıq ödəmələrin bank və poçt sistemləri vasitəsilə transfertinin məcburiliyi qanunla təsbit edilməli və kredit kartlarından istifadə təşviq olunmalıdır. Bütün bunlarla yanaşı, başda ictimai nəqliyyat xidməti olmaqla, əksər infrastruktur xidmətlərində ödəmə kartlarından istifadə praktikası genişləndirilməlidir.

- *Qeyri-rəsmi iqtisadiyyatla mübarizədə sosial nəzarətdən geniş istifadə olunması.* Ölkədə qeyri-rəsmi iqtisadiyyatla mübarizə aparan qurumlar rəsmi təftişlərlə yanaşı, sosial nəzarətdən də istifadə etməlidirlər. Bunun üçün vergidən yayınanların və vergi rekordçularının adlarının və vergi registrlərinin vaxtaşırı ictimaiyyətə açıqlanması, Türkiyədə olduğu kimi işçilərin məcburi sosial sığortası ilə bağlı rəsmi qeydiyyat məlumatlarının iş yerlərində işçilərin görə biləcəyi yerlərdə asılmasının işə götürənlərdən qanunla tələb edilməsi, əmək miqrantlarının rəsmi icazə sənədlərinin üzərlərində gəzdirmələrinin məcburiliyinin qanunla təsbit edilməsi, Yaponiyada olduğu kimi qeyri-rəsmi işçi çalışdıran işəgötürənlərdən işçilərin sosial müavinət tələb etmək haqqının verilməsi və.s tədbirlər görülməlidir.
- *Qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə bağlı rəsmi "qaynar xətt"lərin qurulması.* Bu baxımdan xüsusilə vergi, sosial müdafiə, gömrük orqanları nəzdində anonimlik qorunmaq şərtilə, vətəndaşların qeyri-rəsmi iqtisadi fəaliyyətlərlə bağlı xəbər verə biləcəyi ayrıca "qaynar xətt" sistemləri qurulub istifadəyə verilməlidir.

**3.3.** Qeyri-rəsmi sektorla mübarizə sahəsində beynəlxalq əməkdaşlıq daha da gücləndirilməlidir. Azərbaycanın qeyri-rəsmi sektorla mübarizə sahəsində beynəlxalq təşəbbüslərlə mövcud əməkdaşlığının davam etdirməsi əhəmiyyətli olmaqla yanaşı, bu fəaliyyətin Avropa Şurası Nazirlər Komitəsinin R(80)10 nömrəli "Kriminal Mənbəli Fondların Transferti və Qorunması Əleyhinə Tədbirlər Haqqında" tövsiyyə qərarı, Çirkli Pulların Yuyulması ilə Hökumətlərarası Mübarizə Təşkilatının (FATF) "Çirkli pulların yuyulması əleyhinə 40 tövsiyyə"si və "Terrorizmin maliyyələşdirilməsi əleyhinə 9 xüsusi tövsiyyə"si, Bank nəzarəti üzrə Bazel Komitəsinin "Çirkli pulların yuyulması məqsədilə bank sistemindən istifadə əleyhinə tövsiyyə"si bazasında və Bankların Volfsberq Qrupu, Interpol Baş Katibliyi yanında FOPAC Qrupu, Beynəlxalq Şəffaflıq Hərəkatı, Sığorta Nəzarətçilərinin Beynəlxalq Assosiasiyası (IAIS), Təhlükəsizlik Komissarları Beynəlxalq Təşkilatı (IOSCO) və Maliyyə Kəşfiyyatı Qrupu (Egmont Group) ilə əməkdaşlıq istiqamətində genişləndirməsi də zəruridir.

## 4. İqtisadiyyatın qeyri-rəsmi sektoru əleyhinə sosial şüurun formalaşdırılması sahəsində

Tədqiqatlarımız göstərir ki, Azərbaycanda qeyri-rəsmi iqtisadiyyatın leqallaşdırılması sahəsində dövlət siyasətinin ən az inkişaf edən istiqaməti qeyri-rəsmi sektor əleyhinə sosial şüurun formalaşdırılmasıdır. Bunun üçün də qeyri-rəsmi iqtisadiyyatla mübarizənin effektliyini artırmaq məqsədilə bu sektor əleyhinə sosial şüurun formalaşdırılması istiqamətində tədbirlər gücləndirilməli və bu baxımdan aşağıdakı istiqamətlərin əhəmiyyəti nəzərə alınmalıdır:

- *Qeyri-rəsmi sektorla bağlı mövcud sosial şüurun əsas cizgilərini müəyyən etməyə imkan verən sosioloji tədqiqatların aparılması.* Bu baxımdan hesab edirik ki, qeyri-rəsmi sektor əleyhinə sosial şüurun formalaşdırılması sahəsində səmərəli siyasətin qurulması məqsədilə, ilk növbədə ölkədə qeyri-rəsmi sektorla bağlı mövcud sosial

şüurun əsas cizgilərini müəyyənləşdirməyə imkan verən geniş sosioloji tədqiqatlar aparılmalı və həyata keçiriləcək tədbirlər bu tədqiqatların nəticələrinə adekvat olmalıdır. Belə ki, tədqiqatlar aparılan zaman ölkədə istehsalçıların, istehlakçıların, biznesi maliyyələşdirənlərin, işçilərin, həmkarlar təşkilatlarının, siyasətçilərin və bürokratların qeyri-rəsmi iqtisadiyyata baxışlarının üzə çıxarılması mühüm əhəmiyyət kəsb edir. Məhz bundan sonra qeyri-rəsmi sektor əleyhinə sosial şüurun formalaşdırılması məqsədilə həmin baxışları dəyişdirməyə və ya gücləndirməyə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi asanlaşacaqdır.

- *Əhalinin dövlətə olan etibarının gücləndirilməsi istiqamətindəki tədbirlərin davam etdirilməsi.* Fikrimizcə, ilk növbədə dövlət idarəetməsində Dünya Bankının müəyyənləşdirdiyi "idarəetmə göstəriciləri" (governance indicators) və ya "yaxşı idarəetmə" (good governance) prinsipləri istiqamətində islahatlar fasiləsiz şəkildə davam etdirilməlidir. Bu baxımdan xüsusilə dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi və dövlətdə şəffaflıq və səmərəliliyin artırılması istiqamətindəki tədbirlərlə bağlı dövrü statistik hesabatların formalaşdırılaraq müntəzəm şəkildə ictimaiyyətə açıqlanması mühüm əhəmiyyət kəsb edəcəkdir. Belə ki, dövlət xidmətlərinin keyfiyyətinin yüksəldilməsi əhalidə və bazar subyektlərində dövlətə ödədikləri vergi və digər məcburi ödəmələrin keyfiyyətli xidmət şəklində onlara qayıtdığı düşüncəsini formalaşdıracaqdır. Bu baxımdan Estoniya və Avropa İttifaqının əksər ölkələrində olduğu kimi dövlətin sosial müdafiə sisteminin məcburi sosial sığorta ayırmaları və gəlir vergisi ödəmələrinə adekvatlığının təmin edilməsi istiqamətindəki tədbirlərin davam etdirilməsi effektli olacaqdır. Bütün bunlarla yanaşı, dövlət xərclərinin prioritet istiqamətlərinin cəmiyyətin ehtiyaclarına daha da uyğunlaşdırılması və onların səmərəliliyinin artırılması ilə bağlı tədbirlər də gücləndirilməlidir.
- *Qeyri-rəsmi sektor əleyhinə maarifləndirmə kompaniyalarının genişləndirilməsi və effektivliyinin artırılması.* Ölkədə qeyri-rəsmi sektor əleyhinə bəzi maarifləndirmə kompaniyaları aparılsa da, bizə görə, bu zaman kütləvilik və ünvanlılıq prinsiplərinə o qədər də riayət edilmir. Bu baxımdan hesab edirik ki, maarifləndirmə kompaniyaları daha geniş əhali kütlələrini əhatə etməli və müxtlif sosial qrupların (istehsalçılar, istehlakçılar, biznesi maliyyələşdirənlər, işçilər, həmkarlar ittifaqları, siyasətçilər, bürokratlar) maraqları istiqamətində mesajlar verə bilməlidir. Bunun üçün bütün propoqanda vasitələrindən – dərsliklər, radio, televiziya, ictimai salonlar və.s istifadə olunmalıdır. Həmçinin, qeyri-rəsmi sektor əleyhinə maarifləndirmə kompaniyaları qeyri-rəsmi məşğulluğu da əhatə etməlidir. Bu baxımdan hesab edirik ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu beynəlxalq təşkilatlar, Həmkarlar İttifaqları Konfederasiyası və qeyri-hökumət təşkilatları ilə də əməkdaşlıq etməklə milli səviyyədə qeyri-rəsmi məşğulluq əleyhinə maarifləndirmə kompaniyaları təşkil etməlidir. Bütün bunlarla yanaşı, başda həmkarlar təşkilatları olmaqla, bütün qeyri-hökumət təşkilatlarının formal məşğulluğu stimullaşdırmaya istiqamətlənmiş maarifləndirmə fəaliyyətlərini maliyyələşdirmələri təşviq edilməlidir.